EVDƏ QAL, SAĞLAM QAL!



Prezident İlham Əliyev: Şəffaflıq, dürüstlük, iqtisadi islahatlar ölkəmizə böyük canlanma gətirir




Bax 3

BERNAMA agentliyi: Azərbaycan Prezidenti iqtisadiyyata və insanların rifahına xüsusi əhəmiyyət verir




Bax 3



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 073 (6038) 1 may 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## “Siz, həqiqətən, dahi və müdrik Lidersiniz”



Bax 2

## Ərdoğan: “TANAP regional sülh layihəsidir”

*TANAP regional sülh layihəsidir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Gürcüstanda fəaliyyət göstərən “Diplomat” jurnalının “The New York Times”la birgə əməkdaşlığı ilə çapdan çıxan yeni sayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qələmə aldığı “TANAP: Regional inkişaf və sülh layihəsi” adlı məqaləsində yer alıb. Türkiyə Prezidenti enerjinin birləşdirici rolunun ən gözəl nümunələrindən...*



Bax 4

## Azərbaycanda daha 38 nəfər koronavirusa yoluxdu, 58 nəfər sağaldı, 1 nəfər vəfat etdi

Azərbaycan Respublikasında 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya xəstəliyi olan 1951-ci il təvəllüdlü vətəndaş vəfat edib...



Bax 6

## Tramp: “Çin məğlub olmağım üçün əlindən gələni edəcək”

Bax 11



ABŞ prezidenti Donald Tramp Pekin administrasiyasının koronavirusun yayılmasına münasibətini tənqid edərək bildirib ki, Çin noyabrda keçiriləcək seçkilərdə məğlub olmağım üçün əlindən gələni edəcək. Onun hərəkətləri buna əyani sübutdur. SİA bunu xarici...

## 9 gün sonra qovuldu, 3 milyon avro qazandı



“Bolonya”nın baş məşqçisi Sinişa Mixayloviç “Sportinq”dən qovulduğu üçün 3 milyon avro təzminat alacaq. Bu barədə “A Bola” nəşri məlumat yayıb. Bildirilib ki, ötən ilin iyulunun 18-i Portuqaliya klubuna baş məşqçi təyin olunan mütəxəssislə 9 gün sonra 3 illik müqaviləyə...

Bax 16

## Erməni vitse-spiker müxalifətçiyə kəllə atdı



Bax 13

Ermənistan parlamentinin vitse-spikeri, Paşinyan hökumətinin söz sahiblərindən biri Alen Simonyan müxalifətyönlü “Adekvad” təşkilatının təsisçisi...

## Sağlam gələcək kimdən asılıdır?



Bax 5

## “Məsuliyyətsizlik nəticəsində virus yenidən pik nöqtəyə çata bilər”



Bax 6

## Post-karantin dövrünə necə uyğunlaşa bilərik?



Bax 12

# "Siz, həqiqətən, dahi və müdrik Lidersiniz"



## Rəsmi xronika

Prezident İlham Əliyev M.H.Quliyevin Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutularaq Mahir Hacı oğlu Quliyev Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Zakir Qaralovla telefonla danışıb. Telefon danışığı zamanı dövlətimizin başçısı Baş prokuror vəzifəsində səlahiyyət müddəti başa çatmış Zakir Qaralovun bu vəzifədə xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik prinsiplərinə sədaqətlə xidmət etdiyini vurğulayıb, özünün prezidentlik fəaliyyəti dövründə də prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi istiqamətində onun gördüyü işləri qeyd edib.

Fəaliyyətinə verilən qiymətə görə dərindən minnətdarlıq edən Zakir Qaralov Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daim dəstəkləyəcəyini bildirib.

***Prezident İlham Əliyevin dünyada tüğyan edən koronavirus infeksiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması ilə bağlı verdiyi qərarları vətəndaşlarımız böyük razılıqla qarşılayır, bunu dövlətimizin başçısının xalqımıza diqqət və qayğısının bariz nümunəsi kimi qiymətləndirirlər. Ölkəmizin bütün bölgələrindən vətəndaşlarımız, eləcə də xaricdə yaşayan soydaşlarımız bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə sonsuz minnətdarlıqlarını ona ünvanladıqları çoxsaylı məktublarda ifadə edirlər. SİA Prezidentin saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.***

Qazax şəhər sakini Mahmud Nəsibov: "Çox hörmətli cənab Prezident.

Azərbaycanımızın üzləşdiyi koronavirus pandemiyası bizim ailəmizi də tapmışdı. Mən Qazax rayon polis şöbəsinin əməkdaşı Nəsibov Mahmud və həyat yoldaşım Cəfərova Samirə bu virusa yoluxanlardan olduq. Müayinə edildikdən sonra dövlətimizin yüksək qayğısı, həkimlərimizin peşəkarlığı və məsuliyyəti nəticəsində Şəmkir rayon mərkəzi xəstəxanasında müalicə aldıq. Allaha şükürlər olsun ki, artıq sağalmışıq.

Bu çətin müddət ərzində bizə göstərilən diqqətə və nəvazişə görə Sizə və Birinci vitse-prezident Mehriban xanıma dərin təşəkkürümüzü bildiririk. Ondan ötrü ki, bu pandemiya ilə mübarizədə Siz xalqımızın rifahını, insanlarımızın sağlamlığını hər şeydən öndə tutdunuz. Sizə möhkəm cansağlığı arzulayıram".

Beyləqan şəhər sakini Ərəstun Qarayev yazır: "Hörmətli cənab Prezident və əziz Mehriban xanım.

Dünyamızı böhrana qərq edən, bəşər övladının varlığını təhdid altına alan bu virusa qarşı mübarizədə Sizə uğurlar arzulayıram.

Dövlətimiz tərəfindən görülən qabaqlayıcı tədbirlər, xalqımızın sağlamlığı üçün saymaqla qurtarmayan xeyirxah işləriniz bir daha Sizlərin nə qədər güclü iradəyə sahib olduğunuzu sübut edir. Azərbaycan xalqının duaları Sizinlədir. Allah Sizi və Sizin simanızda xalqımızı qorusun".

Lənkəran şəhəri, Xolmili kənd sakini Murad Mirzəzadə yazır: "Hörmətli cənab Prezident.

Mən 11-ci sinif şagirdiyəm. Lənkəran rayonu Bilal Əliyev adına Xolmili kənd tam orta məktəbində oxuyuram. Dərs əlaçısıyam. Sizinlə qürur duyuram. Sizin kimi bir Prezidentimizin olmağı ilə fəxr edirəm. Bu gün dünyanı cənginə alan koronavirus pandemiyası ilə ən güclü dövlətlər belə mübarizə aparmaqda çətinlik çəkirlər. Ancaq Sizin qabaqlayıcı və çevik tədbirləriniz sayəsində ölkəmiz daha az itki ilə xəstəliyə qalib gəlmək ərəfəsindədir. Siz, həqiqətən, dahi və müdrik Lidersiniz. Bizim birlikdə güclü olmağımız təsdiqini tapdı. Bütün xalq Sizinlə fəxr edir, Sizin və Birinci xanım Mehriban Əliyevanın ətrafında həmişə sıx birləşməyə hazırdır".

Neftçala rayonu, Birinci Qaralı kənd sakini Əlifağa Məmmədov: "Möhtərəm cənab Prezident.

Azərbaycan dünyanın digər dövlətləri kimi koronavirus pandemiyası ilə mübarizə dövrünü yaşayır. Əminik ki, Sizin rəhbərliyinizlə biz bu mübarizədən alnıaçıq, üzüağ çıxacağıq. Dövlətimiz tərəfindən imkansız ailələrə verilən ərzaq sovqatlarının təqdim edilməsində rayon könüllüsü olaraq yaxından iştirak edirəm. Göstərilən diqqət və qayğı rayonun hər bir sakinini sevindirir.

Cənab Prezident, ən ucqar kəndlərdə yaşayan ağsaqqal atalar, ağbirçək analar Sizin üçün dualar edir, dövlətimizin başında Sizin kimi rəhbər olduğu üçün qürur hissi keçirirlər. Allah xalqımızın alqışını, dualarını savabınıza yazsın, hər zaman yolunuza işıq salsın".

Ucar şəhəri Aytən Əliyeva: "Möhtərəm cənab Prezident.

Əfsuslar olsun ki, dünyanı cənginə alan koronavirus Azərbaycanımıza da gəlib çıxdı. Amma Sizin uzaqgörənliyiniz və qayğıkeşliyiniz sayəsində virusun qarşısı etibarlı şəkildə alınmaqdadır. Bu bəlanın ölkəmizdə daha geniş yayılmasına imkan vermədiniz. İnşallah, çətin günlər arxada qalacaq və ölkəmiz bu virusa qalib gələn dövlətlər arasında yer alacaq.

Ölkəmizə tərəqqi və rifah bəxş etdiyinizə, xalqa göstərilən kömək və qayğıkeşliyə görə Sizə və ailənizə təşəkkürümüzü bildirirəm. Nə yaxşı ki varsınız və bizim Azərbaycanımızın Prezidentisiniz. Hər zaman Sizi çox sevəcəyik".

Mingəçevir şəhər sakini Qənbər Səfərli: "Hörmətli cənab Prezident.

Əvvəla Sizi salamlayır və ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildiririk. Dünyada yayılmış COVID-19 pandemiyasının qarşısının vaxtında alınması məqsədilə verdiyiniz bütün tapşırıq və tövsiyələri izləyir və bu işinizi səmimi qəlbdən alqışlayıram. Siz xalqımızın qeydinə qalır, onun sağlam yaşaması üçün əlinizdən gələni əsirgəmirsiniz. Bu çətin günlərimizdə Siz bir daha xalqın qəhrəmanına çevrilmisiniz. Biz Sizinlə fəxr edirik və əminliklə söyləyirik ki, nə yaxşı ki, dövlətimizin rəhbərisiniz. Xalqımızın yolunda gördüyünüz işlərə, yürütdüyünüz siyasətə görə Sizə nə qədər təşəkkür etsək azdır. Allah Sizi qorusun".

Lənkəran rayonu, Boladi kəndi, N.Axundov adına 1 nömrəli tam orta məktəbinin psixoloqu Kəmalə Səfərova yazır: "Möhtərəm cənab Prezident.

Dünyanı cənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq məqsədilə uzaqgörənliklə qəbul etdiyiniz qərarlar, rəhbərliyinizlə həyata keçirilən tədbirlər, əldə olunan nəticələr bir vətəndaş, eyni zamanda, təhsil işçisi kimi məndə qürur hissi doğurur. Hər gün müxtəlif informasiya vasitələrindən dünya üzrə pandemiyaya yoluxanların və ölənlərin sayını öyrənirik. Bizdə isə bu rəqəmlərin qat-qat aşağı olması məhz Sizin vaxtında həyata keçirdiyiniz məqsədyönlü tədbirlərin nəticəsidir. Siz hər bir vətəndaşın Prezidentisiniz. Bunu atdığınız hər bir addımda, xüsusilə bugünkü çətin dövrdə sübut edirsiniz. Şərhə ehtiyac yoxdur. Faktlar danışır. Ulu öndər, müasir Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin siyasi davamçısı kimi onun qurduğu strateji xətti uğurla davam etməyiniz bizi qürurlandırır. Biz də Boladi kənd 1 nömrəli tam orta məktəb olaraq daim Sizin yanınızdayıq və səsinizə səs veririk. Biz birlikdə güclüyük. Bizim Prezidentimiz olduğunuz üçün sizə təşəkkür edirəm. Biz bütün pisliklərə, xəstəliklərə məhz Sizin rəhbərliyinizlə qalib gələcəyik".

***Ceyhun Rasimoğlu***

# Prezident İlham Əliyev: Şəffaflıq, dürüstlük, iqtisadi islahatlar ölkəmizə böyük canlanma gətirir

***Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır. İqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaqdır. Bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə işimizi düzgün prinsiplər əsasında qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları - bütün bunlar ölkəmizə böyük canlanma gətirir.***

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 99-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı ötən il dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunmuş yaşayış binasında mənzillərin və Qarabağ müharibəsi əlillərinə avtomobillərin təqdim olunması mərasimində söyləyib.




AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin dekabr və bu ilin yanvar aylarını əhatə edir.

Çoxcildliyin 99-cu kitabında Prezident İlham Əliyevin Rusiya Federasiyasına səfəri, Azərbaycana gəlmiş Özbəkistan Respublikası Ali Məclisi Senatının, Türkiyə Böyük Millət Məclisinin, Qazaxıstan Respublikası Parlament Məclisinin sədrləri ilə görüşləri, eləcə də bir sıra dövlətlərin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında informasiyalar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Kitabda oxuculara dövlətimizin başçısının Bakının Xəzər rayonunda 2 saylı DOST Mərkəzinin, Bakı “Ağ şəhər”də Mərkəzi Bulvar küçəsinin açılış mərasimlərində iştirakı, Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi, “Şahdağ” Turizm Mərkəzində görülmüş işlərlə tanışlığına dair məlumatlar da təqdim edilib.

Dövlətimizin başçısının 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə söylədiyi geniş nitqin, ilin yekunları ilə bağlı jurnalistlərə, həmçinin Rusiyanın “Rossiya-24” kanalına müsahibələrinin mətnləri də bu nəşrdə yer alıb.

Yeni kitaba Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın Pravoslav icmasına təbrik məktubları və digər məktubları daxil edilib. Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib. “Azərnəşr” tərəfindən buraxılan 99-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# BERNAMA agentliyi: Azərbaycan Prezidenti iqtisadiyyata və insanların rifahına xüsusi əhəmiyyət verir

***Malayziyanın nüfuzlu BERNAMA agentliyi aprelin 30-da “Azərbaycan Prezidenti iqtisadiyyata və insanların rifahına xüsusi əhəmiyyət verir” adlı geniş məqalə yayıb.***




AZƏRTAC xəbər verir ki, ingilis dilində dərc edilən həmin məqalə “EurAsiaAz” Beynəlxalq ekspert klubunun direktoru, “Vzglyad.az” saytının baş redaktoru Seymur Məmmədovun “China Daily” qəzetində yayılmış “Azərbaycan iqtisadiyyatı koronavirus infeksiyası və neft böhranının öhdəsindən gələ biləcəkmi?” adlı yazısı əsasında hazırlanıb.

Məqalədə Azərbaycanda iqtisadiyyatın COVID-19 pandemiyası və azalan neft qiymətləri fonunda yaranan böhranın öhdəsindən gələ bilməsi üçün görülən işlərdən geniş söz açılır. Qeyd olunur ki, Azərbaycan iqtisadiyyatının nə dərəcədə möhkəm dayaqlar üzərində bərqərar olduğunu nümayiş etdirən amillərdən biri ümumi daxili məhsulun (ÜDM) cari ilin ilk 3 ayında 1,1 faiz, qeyri-neft sektorunun isə 3,5 faiz artımıdır. Eyni zamanda, həmin dövrdə ölkədə informasiya-kommunikasiya texnologiyaları sahəsində 18 faiz, dağ-mədən sənayesində 12 faiz, kənd təsərrüfatında 3,7 faiz, yük daşımalarında isə 7,2 faiz artım əldə olunub. Vurğulanır ki, Azərbaycanın cari böhrandan minimal itkilərlə çıxması üçün çox böyük “təhlükəsizlik yastığı”na malikdir. Həmçinin dövlət borcu da çox aşağı səviyyədədir.

Məqalənin müəllifi qeyd edir ki, bu böhran şəraitində Azərbaycan maliyyə yardımı üçün Beynəlxalq Valyuta Fonduna (BVF) müraciət etməyib. Halbuki 150-dən çox ölkə BVF-ə və ya Dünya Bankına yardım göstərilməsi məqsədilə xahiş ünvanlayıb. Kifayət qədər maliyyə ehtiyatlarına malik olan Azərbaycan iqtisadiyyatın inkişafını, onun qismən ləngiyən sahələrini irəlilətmək üçün lazım olan addımları atır.

Məqalədə bildirilir ki, əsasən neft və qaz istehsalçısı kimi tanınan Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm işlər görülüb və bu proses bu gün də uğurla davam etdirilir. Belə ki, artıq pambıq əkini başlanıb. Tütün, şəkər çuğunduru, tərəvəz, kartofun da əkini vaxtında həyata keçiriləcək.

Qeyd edilir ki, Prezident İlham Əliyev kənd təsərrüfatında fermerlərin dəstəklənməsi və COVID-19-un təsirini minimuma endirmək üçün lazım olan bütün addımları atıb və aprelin 14-də dövlət başçısı tərəfindən imzalanmış müvafiq Sərəncam buna bariz nümunədir.

Məqalədə xüsusi olaraq vurğulanır ki, böhran şəraitində Azərbaycanın qazandığı uğurların kökündə 2018-ci ildə keçirilən prezident seçkilərindən sonra dövlət idarəçiliyinin bütün qollarında aparılan əsaslı islahatlar mühüm rol oynayıb.

Müəllif qeyd edir ki, Azərbaycanın hətta bütün dünyanı bürümüş böhran şəraitində inkişafı və digər ölkələrə nisbətən daha az ziyan görməsi Prezident İlham Əliyevin yorulmaz əməyinin, qətiyyətli iradəsinin və xalqın mənafeyini ardıcıl şəkildə qorumasının nəticəsində mümkün olub.

Qeyd edək ki, Malayziyanın ən nüfuzlu rəsmi mətbuat orqanı olan BERNAMA agentliyi 1967-ci ildə təsis edilib və 1968-ci ildən fasiləsiz fəaliyyət göstərir. Yalnız Malayziyada deyil, eyni zamanda, Cənub-Şərqi Asiya regionunda aparıcı xəbər istehsalçılarından olan BERNAMA-nın materiallarına çoxsaylı yerli, regional və beynəlxalq kütləvi informasiya vasitələrində tez-tez istinadlar edilir. BERNAMA ilə AZƏRTAC arasında həm ikitərəfli formatda, həm də beynəlxalq xəbər alyansları çərçivəsində sıx əməkdaşlıq var.

# Leyla Abdullayeva: “Rusiyadakı vətəndaşlarımız onlara göndəriləcək məlumatı gözləməlidirlər”

***Qlobal sağlamlıq böhranı ilə bağlı yaranmış vəziyyətdə Azərbaycan hökuməti xarici ölkələrdə olan və geri qayıtmaq istəyən vətəndaşlarımızın ölkəyə qaytarılması üçün təxirəsalınmaz tədbirləri görüb və tədbirlər hələ də davam etməkdədir.***

Hətta hazırkı xüsusi karantin rejimində xarici ölkələrdəki vətəndaşlarımız ölkəyə geri qaytarılır. Bildiyiniz kimi, Rusiya Federasiyasındakı vətəndaşlarımızın geri qayıtmasını təmin etmək üçün xüsusi portal yaradılıb, vətəndaşlarımızın onlayn qeydiyyatı həyata keçirilib. Ötən həftələrdə bir qrup vətəndaşımız, 548 nəfər ölkəyə qaytarılıb və Rusiyadakı digər vətəndaşlarımızın da Azərbaycana qaytarılması istiqamətində işlər aparılır. Lakin nəzərə almaq lazımdır ki, geri qayıdan hər bir vətəndaşımız karantində yerləşdirilir və bu proses karantin yerlərinin hazırlığı ilə bilavasitə əlaqəli şəkildə həyata keçirilir. SİA xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Rusiyadan ölkəmizə qayıtmaq istəyən vətəndaşlarımızın sərhəd-buraxılış məntəqəsinə gəlməsi ilə bağlı sualını cavablandırarkən bildirib.



Leyla Abdullayeva deyib: “Tərəfimizdən dəfələrlə vətəndaşlarımıza müraciətlər edilib, ölkəmizin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri həmyerlilərimizə çağırış edib, onları anlayış göstərməyə səsləyib. Çünki hazırda vətəndaşlarımız qeydiyyatdan keçdikdən sonra “Evə gedirəm” portalı vasitəsilə onlara göndəriləcək məlumatı gözləməlidirlər, onların sərhəd-buraxılış məntəqəsinə getməsinə heç bir lüzum yoxdur. Əslində, sərhəd məntəqəsinə getməklə vətəndaşlarımız özlərinin və digərlərinin sağlamlıqlarını təhlükəyə atırlar. Bir daha vurğulamaq istərdik ki, vətəndaşlarımızın Azərbaycana gəlməsi ölkəmizdəki karantin yerlərinin hazırlığına uyğun olaraq reallaşdırılır. Bu xüsusda, əlbəttə, həkimlərimizi də düşünməliyik, demək olar ki, fasiləsiz çalışan tibbi personalın əməyinə hörmət nümayiş etdirməliyik. Onu da nəzərə almaq lazımdır ki, digər ölkələrdə də müvəqqəti qalan və geri qayıtmaq istəyən vətəndaşlarımız var, onların da Vətənə qaytarılması üzrə işlər görülür.

Sərhəd-buraxılış məntəqəsinə yığışmaq çıxış yolu deyil və hər bir vətəndaşımızın bunu anlaması vacibdir. Bir daha qeyd etmək istərdik ki, hökumətimiz tərəfindən xarici ölkələrdəki vətəndaşlarımızın ölkəyə qaytarılması istiqamətində işlər Azərbaycandakı vəziyyətin inkişafına, karantin yerlərinin və müvafiq logistik təminatın hazırlığına uyğun olaraq, planlı şəkildə həyata keçiriləcəkdir”.

# Ərdoğan: "TANAP regional sülh layihəsidir"

*TANAP regional sülh layihəsidir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Gürcüstanda fəaliyyət göstərən "Diplomat" jurnalının "The New York Times"la birgə əməkdaşlığı ilə çapdan çıxan yeni sayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qələmə aldığı "TANAP: Regional inkişaf və sülh layihəsi" adlı məqaləsində yer alıb.*



Türkiyə Prezidenti enerjinin birləşdirici rolunun ən gözəl nümunələrindən biri olan TANAP-ın regional sülh layihəsi olduğunu vurğulayıb: "TANAP Türkiyə, Azərbaycan və Gürcüstanın birgə güvənə söykənən əlaqələrinin bariz bir nümunəsi, ölkələrimiz arasındakı köklü dostluğun simvoludur. Xəzər bölgəsinin təbii qazını Gürcüstan və Türkiyə üzərindən Avropaya çatdırılmasını nəzərdə tutan Cənub Qaz Dəhlizinin onurğasını məhz TANAP formalaşdırır. Beləliklə də TANAP təxminən 3500 kilometr uzunluğundakı bu dəhlizin ən əhəmiyyətli hissəsini təşkil edir".

O, ölkəsinin bölgədəki enerji mənbələrinin Türkiyəyə və Avropaya nəqlinin şərait yaratdığını deyib: "Azərbaycan və Gürcüstan əməkdaşlığı sayəsində daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi həyata keçirilib və boru kəməri 2006-cı ildə istismara verilib. Sonra Azərbaycanın "Şahdəniz" çıxarılan təbii qazın Gürcüstana və Türkiyəyə nəqli üçün Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihəsi reallaşdırılıb və xətt 2007-ci ildə istismara verilib. Bu üçtərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətindəki irədə TANAP-ın həyata keçirilməsinə səbəb olub. TANAP-la bağlı ilk addımlar 2011-ci il oktyabrın 25-də Türkiyə və Azərbaycan arasında imzalanmış anlaşma memorandumu ilə atılıb. Daha sonrakı müzakirələr nəticəsində həm Gürcüstanın, həm də Azərbaycanın "Şahdəniz" yatağı üzrə tərəfdaşların dəstəyi sayəsində 2012-ci il iyunun 26-da TANAP üzrə saziş imzalanıb. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. Sonra Azərbaycan və Gürcüstan üzərindən Türkiyəyə uzanan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin genişləndirilməsinə, eləcə də TANAP-ın inşasına dair işlərə başlanılıb. 2015-ci il martin 17-də təməli qoyulan TANAP kəməri 3 il kimi qısa bir müddətdə inşa edilərək 2018-ci il iyunun 12-də Türkiyəyə qaz nəqlinə başlayıb. Bundan əlavə, TANAP-ın Avropa hissəsi 2019-cu il noyabrın 30-da açılıb".

Türkiyə Prezidenti ölkəsinin Azərbaycandan başlayaraq Gürcüstan, Türkiyə və Avropaya uzanan təbii qaz tədarükü zəncirinin hər mərhələsində siyasi və ticari dəstək nümayiş etdirdiyini vurğulayıb: "Türkiye Petrolleri" (TPAO) şirkətinin 19 faizlik səhmlə "Şahdəniz" layihəsinin və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin ən böyük ikinci investordur. "Botaş" şirkəti isə 30 faizlik səhmlə TANAP-ın ən böyük ikinci investorudur. Türkiyə "Şahdəniz-2", Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələrindən ibarət olan təxminən 45 milyard dollarlıq dəyər zəncirində açar roluna malikdir. Təxminən 6,5 milyard dollar sərmayə qoyulan TANAP-da türk boru istehsalçıları və inşaat podratçılar əhəmiyyətli rol oynayıb. Gürcüstan-Türkiyə sərhədindən başlayaraq 20 şəhər, 67 vilayət və 600 kənddən keçən TANAP illik 16 milyard kubmetr təbii qaz nəqletmə tutumu ilə Türkiyə və Avropanın enerji ərz təhlükəsizliyində əhəmiyyətli rol oynayacaq. 2019-cu ilin sonuna Türkiyə 3,7 milyard kubmetr təbii qazı məhz TANAP vasitəsilə alıb. Bu həcm tədricən artaraq ildə 6 milyard kubmetrə çatacaq və TAP kəmərinin cari ildə tamamlanması ilə Avropaya 10 milyard kubmetr qaz nəql ediləcək. Yaxın illərdə TANAP-ın ötürücülük qabiliyyətinin ildə 24 milyard kubmetrə, daha sonra isə maksimum texniki güclə 32 milyard kubmetrə çatdırılması planlaşdırılır".

Rəcəb Tayyib Ərdoğan vurğulayıb: "TANAP Azərbaycandakı digər təbii qaz yataqları ilə Xəzərdəki digər mənbələrin resurslarının və bölgə ölkələrində çıxarılacaq qazın Türkiyəyə və Avropaya çatdırılması üçün əhəmiyyətli bir potensiala malikdir. TANAP-ın enerji təchizatı təhlükəsizliyinə verdiyi töhfədən başqa, artan əhali və böyüyən iqtisadiyyatlar səbəbindən bu gün ciddi qlobal bir müzakirə mövzusuna çevrilən enerjinin regional sülhə verdiyi töhfəni də özündə büruzə verir. TANAP bəzi aktorların enerji mənbələrindən istifadə edərək yaratdığı münaqişə mühitinə sülh və əməkdaşlıq yolu ilə verilən ən yaxşı cavabdır. TANAP "Enerjinin İpək Yolu"dur".

Qeyd edək ki, 2018-ci il iyunun 12-də Əskişəhərdə istifadəyə verilən TANAP qaz kəməri ilə Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlayıb. TANAP boru kəməri ötən il iyulun 1-dən etibarən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. TANAP boru kəmərinin ikinci fazası isə keçən il noyabrın 30-da istifadəyə verilib.

Bu ilin birinci rübündə TANAP ilə Türkiyəyə 941 milyon kubmetr təbii qaz göndərilib. İstismara veriləndən indiyə kimi isə TANAP-la Türkiyəyə 5 milyard kubmetrədək qaz nəql edilib. TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi STEAŞ-a, 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

# "Arxayınlıq göstərməyə heç birimizin haqqı yoxdur"

*"Pandemiya başladıqdan etibarən Azərbaycan çox ciddi önləyici tədbirlər aldı və bunun nəticəsində hazırda vəziyyət tam nəzarət altındadır. Təkcə pandemiyanın təsirlərinin qarşısını almaq üçün deyil, eyni zamanda, postpandemiya mərhələsində həm sosial-iqtisadi problemlərin həlli, həm də iqtisadiyyatın yenidən dirçəldilməsi ilə bağlı kompleks tədbirlər görülür. Bu günə qədər atdığımız addımların uğurlu nəticəsini gördük". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.*



Onun sözlərinə görə, hər bir Azərbaycan vətəndaşı bilir ki, koronavirus bir neçə fazada özünü büruzə verən pandemiyadır: "Gözümüzün önündə dünya təcrübəsini saxlamalıyıq. Millət vəkili diqqətə çatdırıb ki, ayrı-ayrı ölkələrdə müxtəlif mərhələlərdə problemin səngiməsinin və sonra yenidən baş qaldırmasının şahidi oluruq. Ona görə də heç bir halda karantin rejiminin tələbləri ilə bağlı yumşaldılmaları rahatlıq və virusdan tam azad olmaq kimi qəbul etməməliyik. Çünki bu günə qədər əldə etdiyimiz uğurlar alınan qərarlara riayət etməyimiz nəticəsində mümkün olub. Virusla bağlı Azərbaycan mediası, ictimaiyyəti kifayət qədər maarifləndirilib, çoxsaylı videoçarxlar paylaşılıb".

H.Babaoğlu qeyd edib ki, cəmiyyətə yetərli səviyyədə informasiya ötürülüb: "Həkimlərimiz lazımi qədər tibbi maarifləndirmə prosesini reallaşdırıblar. Deputat qeyd edib ki, cəmiyyətin ortaq maraqları üçün sosial izolyasiya tədbirlərinə əməl edilməlidir. Düşünürəm ki, belə bir vəziyyətdə arxayınlıq göstərməyə heç birimizin haqqı yoxdur. Söhbət hər birimizin və bütövlükdə cəmiyyətin maraqlarından gedir. Ona görə indiki mərhələdə karantin rejiminin tələblərinin bir qisminin yumşaldılmasına baxmayaraq, ciddi şəkildə sosial izolyasiya tədbirlərinin hamısını həyata keçirməyə nail olmalıyıq. Özümüzü qorumalıyıq ki, yaxınlarımızı mühafizə edə bilək. Yaxınlarımızı qorumalıyıq ki, ətrafdakı insanların sağlamlığının qorunmasına nail olaq. Ətrafdakıları qorumalıyıq ki, bütövlükdə cəmiyyətimizi və xalqımızı qoruyaq. Ona görə əsla karantin rejimi qaydalarının yumşaldılması prosesini arxayınlıq kimi qəbul etməməliyik".

*Aysel Məmmədova*

# İcraçı direktor: "Azərbaycan qazının Bolqarıstana tranziti layihəsi üzrə işlərin təkrar təşkili həyata keçirilir"



© Trend News Agency

Azərbaycan qazının Bolqarıstana nəqlini nəzərdə tutan Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) tikintisi üzrə işlərin təkrar təşkil olunması həyata keçirilir.

Bunu Trend-ə layihənin operatoru, ICGB şirkətinin icraçı direktoru Teodora Georgiyeva deyib. O bildirib ki, COVID-19 pandemiyası ilə bağlı vəziyyət layihənin iş cədvəlinə ümumi təsirini tam qiymətləndirməyə imkan vermir: "Biz bu vəziyyəti diqqətlə izləyirik və komandamızın, tərəfdaşlarımızın komandalarının həyat və sağlamlıqlarının müdafiəsi üçün təxirəsalınmaz tədbirlər görmüşük. Bu, bizim üçün prioritetdir. Mövcud layihədə işləyən hər kəsin təhlükəsizliyinin təmin olunması üçün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və Bolqarıstan Milli Operativ Qərargahının qayda və tövsiyələri icra olunub. Podratçılarımız layihə üzrə fəaliyyətin yenidən dəyərləndirilməsi və işlərin təkrar təşkil olunması üçün tədbirlər görüb ki, qeliz dövrə baxmayaraq IGB-nin reallaşdırılmasında irəliləyiş davam etsin". Onun sözlərinə görə, bütün dünyada çoxsaylı məhdudiyyətlərlə əlaqədar əlavə tapşırıqların icrasında böyük narahatlıq var: "Bununla belə, ICGB pandemiyanın təsirini düzgün qiymətləndirmək və fəsadların yumşaldılması üçün zəruri tədbirlərin qəbul olunmasında maraqlı olan bütün tərəflərlə əməkdaşlıq edir".

# Azərbaycan və Səudiyyə Ərəbistanı XİN başçıları arasında telefon danışığı olub



Xarici işlər naziri Elmar Məmmədyarovun Səudiyyə Ərəbistanı Xarici işlər naziri Faisal bin Farhan Al Saud ilə telefon söhbəti baş tutub. Xarici İşlər Nazirliyindən (XİN) SİA-ya verilən məlumata görə, Tərəflər iki ölkə arasındakı ikitərəfli münasibətlərin hazırkı durumu, habelə əməkdaşlıq gündəliyində duran bir sıra aktual məsələləri müzakirə ediblər.

Telefon danışığı zamanı Səudiyyə Ərəbistanı və Azərbaycan arasında bərpa olunan enerji, turizm və digər sahələrində əməkdaşlıq məsələlərinə toxunulub və ümumdünya sağlamlıq böhranı bitdikdən sonra bu istiqamətdə səylərin daha da artırılmasının əhəmiyyəti nazirlər tərəfindən vurğulanıb. Tərəflər, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə cari il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusa qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşünün keçirilməsi ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini qeyd ediblər.

# Rumıniyanın AGERPRES milli xəbər agentliyi Nizami Gəncəvi barədə məqalə yayıb



Rumıniyanın AGERPRES milli xəbər agentliyi Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun Azərbaycanın dahi şairi Nizami Gəncəvi barədə məqaləsini yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə Nizami Gəncəvinin Azərbaycan, Şərq və dünya ədəbiyyatındakı yeri və mövqeyi, böyük şairin həyatı, yaradıcılığı haqqında ətraflı məlumat verilir. Şairin adı və ləqəbi, doğum tarixi və yeri, valideynləri və qohumları, təhsili barədə söhbət açılır. Nizami Gəncəvinin "Xəmsə"si, farsca və türkcə divanı barədə məlumat verilir.

# Sağlam gələcək kimdən asılıdır?

## Yaxud, COVID-19-la mübarizədə qalib olmağın əsas məsuliyyəti vətəndaşın üzərindədir



Bəhruz QULİYEV, "SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru

***Artıq bir neçə müddətdir ki, bütün dünyada olduğu kimi Azərbaycanda da COVID-19 pandemiyası ilə mübarizə bütün mümkün vasitələr istifadə olunmaqla davam etdirilməkdədir. Lakin bizdə aparılan mübarizənin digər ölkələrdən fərqli cəhəti və uğurlu nəticələr faktoru ondadır ki, dövlət pandemiyanın epidemiyaya çevrilməməsi üçün çevik, operativ və önləyici tədbirlər planını müəyyən etdi, insanların sağlamlıqlarının mühafizəsi yönündə vacib addımlar atıldı. Məhz bunun nəticəsi idi ki, istər ÜST, istərsə də ayrı-ayrı xarici ölkələr Azərbaycanda pandemiyaya qarşı tətbiq edilən işləri yüksək qiymətləndirərək, onu nümunə olaraq dəyərləndirdilər.***

Onu da qeyd etmək mümkündür ki, Azərbaycanda reallaşdırılan xüsusi karantin rejimi koronavirus infeksiyasının sürətli yoluxma halının qarşısını almaqla yanaşı, aparılan kütləvi dezinfeksiya işləri və həyata keçirilən testlərin kütləvi tətbiqi də, bu mənada öz müsbət tərəfini göstərdi. İnfeksiyaya yoluxmuş insanlar dərhal aşkarlanaraq müvafiq xəstəxanalara yerləşdirildi, onların əksər çoxluğu aparılan yüksək keyfiyyətli müalicə üsulları nəticəsində sağalaraq evlərinə, ailələrinə döndülər. Əbəs deyil ki, ötən müddət ərzində ölkəmizdə sağalanların sayı istər yoluxanların, istərsə də həyatlarını itirənlərin sayından çoxluq təşkil etdi, bu gün də etməkdədir.

### Vətəndaşlar pandemiya təhlükəsinin tam olaraq aradan qaldırılmaması gerçəkliyini anlamalı, belə bir düşüncədən kənar olmalıdırlar

Daha bir vacib məqam ölkəmizdə təhsil, iaşə, satış və s. istiqamətlərdə fəaliyyət göstərən insanlarımızın sağlamlıqlarının mühafizəsi üçün həyata keçirilən tədbirlər oldu. Mümkün vasitələrdən istifadə olunmaqla, onlayn rejimində fəaliyyətlər həyata keçirilərək, həyatın iş axarı demək olar ki, dayanmadı. Bu isə xüsusi karantin rejiminin yumşaldılması üçün şərait yaratdı. Artıq bir neçə gündür ki, xüsusi karantin rejimindən çıxaraq yumşalma ilə bağlı qərar verilib. Bir sıra sahələrin fəaliyyəti bərpa olunub, qadağalar aradan qaldırılıb.

Ancaq əlbəttə ki, bu qərarlar kimsəni rahatlamamalı, vətəndaşlar pandemiya təhlükəsinin tam olaraq aradan qaldırılmaması gerçəkliyini anlamalı, belə bir düşüncədən kənar olmalıdırlar. Əks halda, infeksiyaya yoluxma halının azalmasını göstərən statistik rəqəmlə yenidən arta və əhalinin sağlamlıqlarına mənfi təsirlərini göstərə bilər. Yenidən neqativliklə üz-üzə gəlməmək üçün isə, dövlət tərəfindən tətbiq edilən qaydalara məsuliyyətlə riayət olunmalı, vətəndaşlarımız üzərlərindəki məsuliyyətlərini sözün əsl mənasında boş buraxmamalıdırlar.

### Koronavirus pandemiyasının ikinci dalğasının ayaq açıb-yeriməsinə imkan vermək olmaz

Lakin təəssüf ki, yumşalma dövründə nəzərə çarpan məsuliyyətsizliklər yenidən koronavirus pandemiyasının başlanğıc dövründə həyata keçirilən tədbirlərin təkrarlanması tələbini ortaya qoymaqdadır. Çünki koronavirus pandemiyasının ikinci dalğasının ayaq açıb-yeriməsinə imkan vermək olmaz.

Başqa tərəfdən, vətəndaşlar daha bir reallığı da anlamalıdırlar ki, COVID-19 infeksiyası təhlükəsinin aşkar edilən tərəflərindən biri də, onun uzunmüddətli olmasıdır. Bu baxımdan, tələb olunan qaydalara əməl olunmalı, gigiyena qaydaları, dezinfeksiya vasitələrindən istifadə maksimum şəkildə həyata keçirilməli, həmin amillərə məsuliyyət hissi ilə yanaşılmalıdır.

### Hər bir şəxs digər şəxsin sağlamlığında cavabdeh olduğunu dərk etməlidir

O cümlədən, unudulmamalıdır ki, koronavirus başladığı zamandan "Evdə qal!" kampaniyası davam edir, habelə xalqımızın həmrəyliyini əks etdirən "Biz birlikdə güclüyük!" şüarı məsuliyyət hissini artırmalıdır. Azərbaycanın pandemiya ilə bağlı ABŞ, Rusiya, Avropa ölkələrinin aqibətini yaşamaması üçün hər bir şəxs digər şəxsin sağlamlığında cavabdeh olduğunu dərk etməlidir. Eləcə də, risk qrupuna aid yaşları 65-dən yuxarı olan vətəndaşların da sağlamlıqlarına olan təhlükə yaddan çıxarılmamalıdır.

Düzdür, bu çox çətin prosesdir və xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlərin sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli yumşaldılması da lazımdır, lakin söz yox ki, əgər epidemioloji vəziyyət tələb edərsə, infeksiyanın artım dinamikası müşahidə olunarsa, yumşaldılmış karantin rejimi yenidən sərtləşdirilməli, xüsusi karantində tətbiq edilən bir sıra məhdudiyyətlər yenidən icra olunmalıdır. COVID-19-a qalib gəlmək şansını əldə etmək üçün məhz bu cür nəticələrə gəlmək vacibliyi artıq özünü göstərməkdədir. Ona qalib gəlmək üçün isə əsas məsuliyyət əlbəttə ki, vətəndaşın üzərinə düşür.

Bütün bunlar bilavasitə sağlam gələcəyimiz üçün lazımi, qəbul edilməsi olan gerçəkliklərdir. Hər kəs bilməlidir ki, əvvəlki həyat rejiminə geri dönmək üçün ilk məsuliyyət onun üzərindədir.

## Rusiya Ermənistana sanksiya tətbiq edəcək

Ermənistanın "İrates" nəşri yazır ki, Rusiya bir sıra Ermənistan hakimlərinə mülkə sahib olma, maliyyə hərəkəti və ölkə ərazisinə daxil olma qadağasına qədər tətbiq ediləcək sanksiya hazırlayır. Qeyd olunur ki, buna səbəb həmin hakimlərin hüquq normalarını aşaraq, siyasi motivasiyalara yol verməlridir.

Hələlik sanksiyalar Armen Danielyana, Anna Danibekyana və Artuş Qabrielyana qarşı çıxarılır. Lakin qadağalar yalnız hakimlər üzərində başa çatmır. Erməni nəşri yazır ki, bənzər sanksiyalar eyni zamanda 1 mart olayları ilə bağlı istintaq tədbirləri aparan müstəntiq və prokurorlara qarşı da hazırlanır. "Yeri gəlmişkən, problemi yalnız onları deyil, həmçinin dostlarına və qohumlarına da yaşanacaq. Onlar da nəzarətdə ollacaqlar", erməni nəşri yazır.

## "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda videoəlaqə vasitəsilə onlayn mətbuat konfransı keçirilib



İndiki pandemiya şəraitində vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə əlçatanlığının asanlaşdırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən müasir innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu ərəfədə əhaliyə yeni elektron və mobil xidmətlər təqdim olunaraq məhkəmə qərarlarının icrası ilə əlaqədar Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıqda borcun və digər ödənişlərin onlayn qaydada həyata keçirilməsi imkanı yaradılıb. Həmçinin mobil notariatın imkanları genişləndirilərək vətəndaşlara yeni - nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi xidməti istifadəyə verilib, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəmə proseslərinin videokonfrans şəkildə keçirilməsi məqsədilə xüsusi proqram modulu hazırlanaraq tətbiqinə başlanılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və qərarlarına uyğun olaraq Ədliyyə Nazirliyində aprelin 30-da "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda videoəlaqə vasitəsilə onlayn mətbuat konfransı keçirilib, ədliyyə və məhkəmə fəaliyyətinə əlçatanlığın genişləndirilməsinə yönələn bu innovasiyalar ictimaiyyətə təqdim olunub.

Tədbirdə nazirliyin aidiyyəti struktur və yerli qurumlarının rəhbər və məsul işçiləri, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti, Azərbaycan Mətbuat Şurasının, vətəndaş cəmiyyəti institutlarının və çoxsaylı KİV-lərin təmsilçiləri iştirak ediblər.

Mətbuat konfransında pandemiya dövründə nazirlik tərəfindən görülən tədbirlər, xüsusi rejim şəraitində ədliyyə orqanlarının fəaliyyətinin təşkili və innovasiyaların tətbiqi barədə çıxışlar olub, faydalı diskussiyalar aparılıb.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı görülən qəti tədbirlər çərçivəsində ədliyyə orqanlarında və məhkəmələrdə pandemiyaya qarşı zəruri profilaktik və qabaqlayıcı tədbirlər görülüb, bu məqsədlə nazirlik üzrə xüsusi əmr imzalanıb. Həmçinin ədliyyə işçiləri və hakimlər dövlət başçısının və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çağırışlarına qoşularaq sosial həmrəylik nümayiş etdirib, Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr, xüsusi qayğıya ehtiyacı olan ahıl və tənha vətəndaşlara müvafiq yardımlar olunub.

Məhkumların həyat və sağlamlıqlarının qorunması məqsədilə penitensiar müəssisələrin gücləndirilmiş iş rejimində fəaliyyəti, virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı məhkumlara həssas və humanist münasibət bəslənilərək dövlət başçısının əfv Sərəncamı ilə 176 nəfərin azadlığa buraxıldığı, həmçinin davamlı xarakter alan cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə institutunun tətbiqinin intensivləşdiyi qeyd edilib.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə işsiz və xüsusi karantin rejiminə görə işini itirən aztəminatlı şəxslərə birdəfəlik ödəmələrin verilməsi üçün çoxsaylı fərdi məlumatlar təhlil edilərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunduğu vurğulanıb.

Qeyd olunub ki, ədliyyə xidmətlərinə əlçatanlığın asanlaşdırılması məqsədilə innovasiyaların tətbiqi genişləndirilib, nazirliyin rəsmi saytının "Vətəndaşlar üçün əlaqə" və "İnteraktiv əlaqə" bölmələrinin funksionallığı artırılaraq elektron qaydada müraciət etmək imkanları artırılıb, əhaliyə vətəndaşlara məsafədən xidmətlərin göstərilməsi genişləndirilib.

Mətbuat konfransında nazirlik tərəfindən yeni istifadəyə verilən innovasiyalar barədə məlumatlar təqdim olunaraq borcun, o cümlədən aliment, kredit, cərimə və digər ödənişlərin "ASAN ödəniş", "Elektron hökumət" portalları və müxtəlif mobil tətbiq vasitəsilə nağdsız və ya müvafiq terminallar vasitəsilə nağd şəkildə həyata keçirilməsi, "Mobil notariat" tətbiqi üzərindən nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi, həmçinin xüsusi proqram modulu vasitəsilə məhkəmə proseslərinin videokonfrans şəkildə keçirilməsinin təşkili vurğulanıb.

Tədbirdə vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri tərəfindən mövzu ilə bağlı çıxışlar olub, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, sual-cavab sessiyası keçirilərək jurnalistləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

## ÜST açıqladı: "COVID-19-un ikinci dalğası qaçılmazdır"



Ümumdünya Səhiyyə Təşkilatının Rusiyadakı nümayəndəsi Melita Vuynoviç koronavirus pandemiyasının ikinci dalğasının qaçılmaz olduğunu açıqlayıb. SİA-nın xəbərinə görə, ÜST nümayəndəsi insanların çoxunun buna qarşı toxunulmazlığı olmadığını bildirib. "Bu tamamilə yeni virusdur. Əhalinin çox kiçik təbəqəsi bu virusa qarşı immunitetlidir", - deyə, Melita Vyunoviç qeyd edib. Onun sözlərinə görə, koronavirusa qarşı xüsusi profilaktika, peyvənd hazırlanmayana qədər virusun ikinci dalğasının qarşısını ala biləcəyimizə bağlı danışa bilmərik. ÜST nümayəndəsi qeyd edib ki, pandemiyanın ikinci dalğası zamanı infeksiyanın yayılmasının qarşısını almaq üçün birinci dalğanın təcrübəsindən istifadə etmək lazımdır.

## AŞ PA-nın yay sessiyası təxirə salınıb



Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyası təxirə salınıb. SİA-nın məlumatına görə, qərar koronavirus pandemiyası ilə əlaqədar qəbul edilib. Sessiyanın keçiriləcəyi tarix barədə məlumat verilməyib. Qeyd edək ki, AŞ PA-nın yay sessiyası iyunun 22-dən 26-dək keçirilməli idi.

## “Azərbaycanda qayğıya ehtiyacı olan bütün insanlar müvafiq dəstək proqramlarından bəhrələnirlər”



Azərbaycanda əhalinin bütün təbəqələrinin dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunması həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır. Bu gün yeni növ koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində də Azərbaycanda həyata keçirilən operativ və mübarizə xarakterli tədbirlər dövlətin öz vətəndaşlarına verdiyi dəyərin əyani göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. S.Fətəliyeva bildirib ki, Azərbaycanda pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan tədbirlərin böyük bir qismi sosial sferanı əhatə edir. Belə ki, respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq insanların sağlamlığını, sosial müdafiəsini təmin etmək, iş yerlərini, əməkhaqlarını qorumaq məqsədilə operativ tədbirlər görülür.

Deputatın sözlərinə görə, respublikamızda pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan sosial məzmunlu tədbirlərin miqyası kifayət qədər genişdir. Dövlət bu məqsədlə böyük həcmlərdə maliyyə vəsaiti ayırır. Prezident İlham Əliyev bəyan edib ki, bizim üçün prioritet məsələ insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Dövlətimizin başçısı bu günlərdə bir daha qeyd etdi ki, heç bir sosial proqram, sosial layihə təxirə salınmayacaq.

“Hazırda pandemiya şəraitində biz sosial proqramların daha da genişləndirilməsinin şahidiyik. Sosial dövlət olan Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün insanlar müvafiq dəstək proqramlarından bəhrələnirlər. Respublikamız həyatımıza bir sıra çətinliklər gətirən pandemiya şəraitində də özünün bu siyasətinə sadiqliyini nümayiş etdirir. Prezident İlham Əliyev ölkədə pandemiya şəraitində həssas qruplardan olan insanların sosial müdafiəsini ən mühüm məsələlərdən biri kimi qarşıya qoyub. Dövlətimizin başçısı 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə söylədiyi nitqində bununla bağlı qəti mövqeyini bildirərək deyib: “Həssas təbəqənin qorunması, hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik”. Respublikamızda pandemiya şəraitində digər istiqamətlərdə olduğu kimi, əhalinin həssas qruplarının sosial müdafiəsinin təmin edilməsi məqsədilə reallaşdırılan tədbirlərin də əhatə dairəsi kifayət qədər genişdir. Bu barədə rəsmi məlumatlar ictimaiyyətə mütəmadi olaraq çatdırılır. Əsas məqam odur ki, bu məsələdə vətəndaşlarımız birlik və həmrəylik nümayiş etdirir, dövlətimizin atdığı addımları dəstəkləyirlər. Cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən insanların Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya çoxsaylı minnətdarlıq məktubları da bunu təsdiqləyir. Bütün bu faktlar göstərir ki, hazırkı şəraitdə dövlətimizin düşünülmüş siyasəti və milli birliyimiz bu çətin sınaqdan uğurla çıxmağımıza başlıca vəsilə olacaq”, - deyə S.Fətəliyeva vurğulayıb.

## “Məsuliyyətsizlik nəticəsində virus yenidən pik nöqtəyə çata bilər”



“Karantin rejimi ilə bağlı yumşalma tədbirləri pandemiya ilə bağlı mübarizədə həyata keçirilən böyük planlı fəaliyyətin nəticəsidir. Lakin yumşalma heç də insanlarda rahatlıq, əminlik hissi yaratmamalıdır. Vətəndaşlar birdəfəlik anlamalıdır ki, koronavirus nə sərhəd, nə insan, nə də mövqe tanıyır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib. O bildirib ki, hazırda pandemiya ilə bağlı vəziyyət nəzarət altında olsa da, məsuliyyətsizlik nəticəsində virusla bağlı yenidən pik nöqtəyə çatmaq ən məsələsidir: “Heç kim yumşalma tədbirlərinə arxayın olmamalı, qaydaları pozmamalıdır. Biz yenə də diqqətli olmalı, gücümüzü səfərbər edib, dövlətimiz tərəfindən sağlamlığımız üçün edilən bütün çağırışlara qoşulmalıyıq”.

Deputat söyləyib ki, hər kəs maksimum şəkildə özünü və ailəsini yoluxmadan qorumağa davam etməlidir: “Çünki, proqnozlar, eləcə də Dünya Səhiyyə Təşkilatı və digər təşkilatların gəldiyi qənaət budur ki, virus təkrarlana, qayıda bilər. Bunun qarşısını almaq üçün ayıq-sayıqlığımızı itirməməli, dövlətin çağırışlarına diqqətli olmalıyıq. Tətbiq olunan qadağalar vətəndaşların sağlamlığının qorunması üçündür. Bunu hər kəs nəzərə almalıdır”.

J.Əliyeva qeyd edib ki, xüsusilə də 65 yaşdan yuxarı insanlar “ Evdə qal”mağa davam etməlidirlər: “Bildiyiniz kimi, Azərbaycanda tətbiq olunan karantin rejiminin ilk müddəası yaşlılarla bağlı olub. Çünki səhiyyənin verdiyi proqnoza görə, 65 yaşdan yuxarı insanlarda immun sistemi zəif olduğu üçün onların virusa, xüsusilə də koronavirus kimi ağır keçirilən xəstəliyə yoluxma riski daha çoxdur. Ona görə də bu kateqoriyaya daxil olan insanlar cəmiyyətdən daha tez təcrid olundu. Bu yumşalma onların yenidən cəmiyyətə qovuşması anlamına gəlməməlidir. Ölkəmizdə 65-yaşdan yuxarı insanların sosial baxımından problemləri dövlət tərəfindən tam olaraq qarşılanır. Bu baxımdan ahıl insanlar narahatçılıq keçirməməli, sadəcə verilən tövsiyələrə riayət edərək sağlamlıqlarını qorumalıdırlar”.

***Nailə Məhərrəmova***

## “Ermənilərin yalançı təbliğatı artıq beynəlxalq münasibətlərdə keçmir”



“Uydurma “erməni soyqırımı” erməni millətçiləri tərəfindən keçmiş Osmanlı, indiki Türkiyəyə qarşı siyasi təzyiq aləti kimi ortaya atılıb. Müəyyən xarici qüvvələr bu məsələdə erməni millətçilərinə, erməni diaspora dairələrinə dəstək veriblər. Müəyyən dövrdə də bu əməllərinə nail ola biliblər. Məhz bunun nəticəsidir ki, 20-dən çox ölkənin parlamenti bu barədə ədalətsiz qərar qəbul edib. Ancaq son dövrlərdə ermənilərin bu yalançı təbliğatı artıq beynəlxalq münasibətlərdə keçmir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

Deputat bildirib ki, Türkiyənin və türkdilli dövlətlərin beynəlxalq birlikdə siyasi hüdudları böyükdür: “Onların fəaliyyəti dünyada təhlükəsizliyin qorunmasına, əməkdaşlığın genişlənməsinə çox böyük xidmət edib və artıq erməni millətçilərinin bu hay-küyünə hər hansı bir ehtiyac qalmayıb. Erməni politoloqlarından biri mətbuatda belə bir açıqlama verib ki, biz 20-dən çox ölkənin parlamentinin “soyqırımın” tanınmasına nail olmuşuq, lakin Dağlıq Qarabağ məsələsində həmin ölkələrdən biri də bizi müdafiə etmir və gördüyümüz işin nəticəsi yoxdur. Türkiyə-Azərbaycan və digər türkdilli dövlətlər erməni yalanının ifşası üçün birgə fəaliyyət göstərirlər. Onlara ən gözəl cavab bu gün dövlətimizin nüfuzu, iqtisadi qüdrətimizin artması, Azərbaycanın və Türkiyənin iştirakçısı olduğu regional-iqtisadi layihələrin dünyanın diqqətini cəlb etməsi, Azərbaycanda, Türkiyədə və türkdilli dövlətlərdə beynəlxalq tədbirlərin geniş şəkildə keçirilməsidir”.

A.Mizəzadə vurğulayıb ki, Ulu Öndər tərəfindən ideyası irəli sürülən, Prezident İlham Əliyev tərəfindən davam etdirilən Bakı-Tibilisi-Ceyhan neft kəməri bu gün Avropanın enerji təhlükəsizliyində böyük rol oynayır: “Bakı Tibilisi Qars dəmiryol xəttinin çəkilişi Asiya ilə Avropa arasında çox böyük bir körpü rolunu oynayıb və bu günlərdə vaxtaşırı Çindən Avropaya çoxsaylı yüklər məhz bu dəmiryolu xətti ilə daşınır. Göründüyü kimi ermənilərin bu gün türkdilli dövlətlərin uğurlarına kənardan həsədlə baxmasından başqa yolu qalmayıb. Torpaqlarımızın işğalı məsələsində də Azərbaycanın hücum taktikası, qətiyyətli mövqeyi hesab edirəm ki, öz nəticəsini verəcək”.

## Azərbaycanda daha 38 nəfər koronavirusa yoluxdu, 58 nəfər sağaldı, 1 nəfər vəfat etdi



Azərbaycan Respublikasında 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya xəstəliyi olan 1951-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1804 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1325 nəfər müalicə olunaraq sağalıb, 24 nəfər vəfat edib, 455 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 17 nəfərin vəziyyəti ağır, 24 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 143.079 test aparılıb.

## Milli Məclisin Mədəniyyət komitəsinin növbəti onlayn iclası keçirilib



Aprelin 30-da Milli Məclisin Mədəniyyət komitəsinin növbəti onlayn iclası keçirilib. SİA-nın xəbərinə görə, iclası aparan komitə sədri Qənirə Paşayeva bildirib ki, “Nəşrlərin beynəlxalq mübadiləsinə dair” Konvensiyanın təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə təqdim edilir.

Qeyd edilib ki, qanun layihəsi ölkə Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunub. Konvensiya 3 dekabr 1958-ci il tarixdə Paris şəhərində YUNESKO tərəfindən qəbul edilib, 23 noyabr 1961-ci ildə qüvvəyə minib və artıq 47 dövlət tərəfindən ratifikasiya edilib. Sənəd konvensiyanın iştirakçısı olan dövlətlərin hökumət orqanları və kommersiya məqsədi daşımayan təhsil, elm, texnika və mədəniyyət profilli qeyri-hökumət qurumları arasında nəşrlərin mübadiləsini ehtiva edir. Mübadilə obyektləri kimi təhsil, hüquqi, elmi-texniki, mədəniyyət və informasiya sahəsi üzrə nəşrlər (kitablar, qəzetlər, dövri nəşrlər, xəritələr və planlar, reproduksiyalar, fotoşəkillər, musiqi əsərləri, brayl nəşrləri və s.) nəzərdə tutulur. Konvensiya məxfi sənədlərə, sirkulyar məktublara şamil edilmir. İclasda komitə üzvləri Fazil Mustafa, Aqil Abbas, Ülviyyə Ağayeva, Novruzəli Aslanov, Nizami Cəfərov, Əziz Ələkbərli, Cavanşir Feyziyev, Ülviyyə Həmzəyeva, Sabir Rüstəmxanlı və Mixail Zabelin sənədin nəşrlərin dünya dövlətləri və xalqları arasında sərbəst yayılmasına şərait yaradılması baxımından çox əhəmiyyətli olduğunu vurğulayıblar. Müzakirələrdən sonra qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

## Karantini pozan daha 839 sürücü cərimələnib

Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar 29.04.2020-ci il saat 00:00-dan 30.04.2020-ci il 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb.



BDYPİ-dən SİA-ya verilən məlumata görə, koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 29.04.2020-ci il saat 00:00-dan 30.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 839 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib. Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 44016 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

# Şanslıyıq, birlikdəyik, güclüyük!

## Milli Məclisin deputatı Kamaləddin Qafarovun yap.org.az-a müsahibəsi:

*- Hazırda Azərbaycanda gedən ictimai-siyasi və sosial prosesləri necə xarakterizə edərdiniz?*

- Ölkəmizdə , bütün dünyada olduğu kimi, koronavirus pandemiyasının imtahana çəkdiyi qayğılı bir durum var. İllərlə rastlaşmadığımız və ağlımıza belə gətirmədiyimiz təbii fəlakətlə- pandemiya ilə mücadilə vəziyyətindəyik. Amma şanslıyıq, birlikdəyik və güclüyük. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu pandemiyadan mütəşəkkil və ən az ziyanla çıxan ilk dünya 20-liyində biz də yer alırıq. Preventiv tədbirlər nəticəsində pandemiyanın qorxulu təsiri minimuma endirildi və indinin özündə belə inamla demək olar ki, biz bu imtahandan ən az itki ilə çıxmağı bacardıq.

Görülən sosial tədbirlərin daim diversifikasiyası, insanların, xüsusilə də aztəminatlı ailə və şəxslərin dövlətin himayəsinə alınaraq qorunması və çətin vəziyyətdən qurtarılması, əslində, böyük bir qəhrəmanlıqdır. Pandemiyanın əvvəlcədən bəlli olmayan fəsadlarına qarşı dəqiq mübarizə planının hazırlanması və mərhələli, əsaslandırılmış şəkildə həyata keçirilməsi uğurun əsas şərti idi.Bu çətin günlərdə Prezidentimizin iş qrafikinin gərginliyinə və dövlət qayğılarına rəğmən, insanların yanında olması, onların sosial problemlərini həll etməsi, operativ, çevik tədbirlər



görməsi, hər birimizi düşünməsi yenidən xalqımızı mütəəssir etdi və duyğulandırdı.

Ən əsası da odur ki, bu proseslər sabit iqtisadi artım və siyasi fəallıq şəraitində baş verdi. Ölkə bu fəlakətlə mübarizədə özünün daxili resurslarından bəhrələndi və heç bir dövlət və ya beynəlxalq donor təşkilatları qarşısında borc öhdəliyinə girmədi.

*- Bu uğurların qazanılmasında, sizcə, hansı amillərin daha çox rolu oldu?*

- Hesab edirəm ki, ən mühüm amil, qeyd etdiyimiz kimi, ölkənin güclü əllərdə olması , balanslaşdırılmış, çevik və praqmatik daxili və xarici siyasətdir. Bu siyasətin əsas qayəsi makroiqtisadi sabitliyin və maliyyə stabilliyinin qorunub saxlanması, daxili ehtiyatlardan səmərəli şəkildə yararlanmaqdır.

Xatırlayırsınızsa, ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli sərəncamı ilə Tədbirlər Planı təsdiqləndi və plana əsasən məşğulluq və sosial rifaha dəstək məqsədi ilə 4 istiqamət müəyyənləşdirildi.Təxminən bir ay sonra isə bununla bağlı 2.5 milyon nəfəri əhatə edən 600 milyon manatlıq sosial paket müəyyənləşdirildi. İqtisadi blokun fəal iştirakçıları olan iş adamlarının sosial müdafiəsi üçün də tədbirlər görüldü. Dövlət sektorunda çalışan 910 min işçinin iş yerlərinin saxlanması, səlahiyyətlərinin evdən icra edilməsi ilə bərabər , özəl sahələrdə çalışan təxminən 719 min işçi üçün də anoloji şərait yaradıldı.

Prezident İlham Əliyev çox gözəl demişdir: "Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək."

*- Kamaləddin müəllim, davamlı inkişaf, qurub-yaratmaq bu çətin günlərdə belə kimlərinsə ürəyincə deyil və onlar hər vəchlə ölkədə qarışıqlıq yaratmağa, görülən işlərə kölgə salmağa can atırlar...*

- Bəlli xarici qüvvələr tərəfindən dəstəklənən, daha doğrusu, şirnikləndirilən bu insanlar Azərbaycan reallığına şər atmaqla yanaşı, həm də aldıqları çirkli vəsait qarşılığında cəmiyyətə dağıdıcı çağırışlar da edirlər. Hətta karantin dövründə belə Azərbaycana qarşı qarayaxma kampaniyasının aparılması və dezinformasiyaların tüğyan etməsi cəmiyyətdə çaşqınlıq, qarışıqlıq yaratmaq kimi miskin bir məqsədə hesablanıb. Amma bu cılız insanların cəhdləri cəmiyyətimizin üzvləri tərəfindən ikrah, təpki və nifrətlə qarşılanır.

İqtidarın saysız-hesabsız uğurlarını "həzm edə bilməyən" "beşinci kalon" təmsilçilərinin cəhdləri hiddət, təəssüf doğurur və məğlubiyyətə məhkumdur. Bütün bu cəhdlər faydasızdır, çünki Azərbaycan cəmiyyəti artıq dövlət və dövlətçiliyə yönələn istənilən cəhdi dəf etməyə qadirdir.

Bircə faktı xatırlatmaq istəyirəm. Ötən ay ölkə iqtidarı dəfələrlə olduğu kimi, növbəti dəfə müxalifəti işbirliyinə, ölkə üçün birgə əməli fəaliyyətə səslədi. İlk dəfə olaraq hətta Prezident Administrasiyası səviyyəsində dialoqlar, məsləhətləşmələr başlandı.Lakin bir neçə radikal müxalifət təmsilçi dialoqu pozaraq, danışıqların məhz onların partiya qərargahında keçirilməsində təkid edərək prosesdən yayındılar. Belələrinə ən sərrast xarakteristikanı məhz Prezidentimiz vermişdir: " ...O ki qaldı, bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir."

Müasir Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, stabil ölkələrdən biridir və Azərbaycan xalqı Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasəti dəstəkləyir, dövlətimizin rəhbərliyinə öz yüksək inam və etimadını qətiyyətlə nümayiş etdirir. Məhz bu səbəblərdən özünü radikal qüvvələr adlandıran tör-töküntülərin Azərbaycanda sabitliyi pozmaq, cəmiyyətdə qarışıqlıq yaratmaq cəhdləri heç bir nəticə verməyəcəkdir.

---

# Kamilə Əliyeva: "Bunu yalnız düşmən edə bilər"

***"Azərbaycan hakimiyyətinin, xüsusilə, ölkə Prezidenti cənab İlham Əliyevin ölkədə siyasi həmrəylik, siyasi dialoq mühitinin tam bərqərar olması üçün atdığı önəmli addımlar göz önündədir. Hər birimiz bunun canlı şahidləriyik. Elə son bir neçə ay ərzində atılan addımlar, verilən qərar bunun əyani göstəricisidir.***

Parlamentin rəhbərliyində ilk dəfə müxalifət nümayəndəsinin təmsil olunması, komitə sədrləri və komitə sədrlərinin müavinlərinin əksəriyyətinin Milli Məclisdə yer alan digər partiyaların təmsilçiləri arasından seçilməsi, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdirinin siyasi partiya liderləri ilə görüşlərinin keçirilməsi, iki partiyanın qeydiyyata alınması, nəhayət, bugünlərdə Ali Məhkəmənin iki müxalifət təmsilçisi ilə bağlı qərar qəbul etməsi Azərbaycan iqtidarının, ölkə Rəhbərinin siyasi dialoqda nə qədər səmimi və maraqlı olduğunu bir daha bariz şəkildə nümayiş etdrir. Bütün bunların əsas müəllifi, memarı isə ölkə Prezidenti cənab İlham Əliyevdir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı, professor Kamilə Əliyeva deyib.

K.Əliyeva bildirib ki, hələ öən ilin martında Azərbaycan xalqına Novruz təbrikində ölkə Prezidenti digər sahələrlə yanaşı siyasi sahədə və məhkəmə sistemində islahatlarının yeni mərhələsinin anonsunu



vermişdi. Və həmin dövrdən keçən bir ildən artıq vaxt ərzində həm siyasi sahədə, həm məhkəmə sistemində həyata keçirilən islahatlar bu gün öz müsbət nəticələrini və töhfələrini verməkdədir. Ən əsası və ən vacibi isə odur ki, bunlar öz könüllü seçimimizdir. Azərbaycan dövləti, ölkə Rəhbəri kimlərinsə təzyiqi və diqtəsi ilə deyil, məhz Azərbaycan xalqının maraq və mənafelərindən çıxış edərək, müstəqil şəkildə bu addımları atır və bundan sonra da atacaq. Kimlərsə buna mane ola bilməyəcək - nə daxildən, nə də kənardan. Hər kəs görüb, görür, görməlidir ki, Azərbaycana təzyiq etməyin mənası, anlamı, faydası və effekti yoxdur. Çünki o güclü, müstəqil, inkişaf, tərəqqi edən bir dövlətdir və onun İlham Əliyev kimi Lideri var.

"Çox təəssüflər olsun ki, ötən əsrin 90-cı illərində ölkəni siyasi və sosial partlayış həddinə gətirib çıxarmış və hakimiyyətdən biabırçılıqla getmiş, son 27 ildə xalq tərəfindən boykot edilmiş qüvvələr, onların tör-töküntüləri hələ də öz çirkin və xəbis əməllərindən əl çəkmir və belə görünür ki, əl çəkmək niyyətində də deyillər. Çünki müstəqil deyillər, hər zaman çirkli qüvvələr, Azərbaycana qənim kəsilən və ermənilərin təsir dairəsində olan antiAzərbaycan dairələr, mərkəzlər tərəfindən idarə olunur, təlimatlandırılır, onların alətinə, buyruq qullarına çevrilirlər. Bu "qüvvələrə" də fəaliyyəti daim uğursuzluqlarla, fiaskolarla "zəngin" olmuş Əli Kərimli rəhbərlik edir. Onun beş-on nəfərdən ibarət AXCP-si və təsiri altında saxladığı, millikdən uzaq Milli Şurası bütün siyasi əxlaq qaydalarını, siyasi mədəniyyət normalarını bir kənara tullayaraq, ermənipərəst antiAzərbaycan dairələrlə içiçə, açıq-aşkar işbirliyindədirlər və ölkəmizə, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan hakimiyyətinə qarşı ən rəzil və murdar addımlar atmaqda, dünyaya, beynəlxalq təşkilatlara yalan, böhtan, iftiralarla dolu məlumatlar ötürməkdədirlər. İşləri-gücləri, gecələri-gündüzləri yalnız və yalnız yalan, böhtan, şər-şəbədə "istehsal" etməkdədir. Dünyada və onun bir parçası olan müstəqil Azərbaycanda yaşanan koronavirus pandemiyası dövründə isə Əli Kərimli, onun tərəfdarları, millilikdən uzaq Milli Şurası daha da rəzilləşmiş və ağzınlaşmışlar. Gözlərini yalan, iftira, böhtan, qərəz o qədər örtüb ki, az qala bu bəlanı da iqtidara, hakimiyyətə bağlayalar, Azərbaycan dövlətinin ayağına yazalar. Bundan da böyük xəyanət, murdarlıq, dövlətə və dövlətçiliyə düşmənçilik, rəzillik olarmı? Nə qədər ağlını, şüurunu itirmiş olasan ki, bunları iddia edəsən, yalanlar toxuyasan və onları ictimaiyyətə sırımağa cəhd edəsən? İqtidarın, Azərbaycan dövlətinin dünyanı başına götürmüş bu bəlanın Azərbaycanda geniş yayılmaması üçün görülən misilsiz addımları, dünya tərəfindən etiraf edilən uğurları korluğa, karlığa vurub, ölkənə, dövlətinə, millətinə bu qədər qənim kəsiləsən? Bunun bir adı var, cənab Prezidentin də dediyi kimi, dövlətə və xalqa qarşı açıq düşmənçilik. Bunu ancaq düşmən edə bilər. Ancaq Əli Kərimlilər nə edirlər-etsinlər, alınmayıb, alınmayır və alınmayacaq, bütün xam xəyalları hər zamankı kimi, puça dönəcək, növbəti acı məğlubiyyəti yaşayacaqlar. Qazanan, udan, zəfərlərdən-zəfərlərə doğru addımlayan isə başda ölkə Prezidenti cənab İlham Əliyev olmaqla Azərbaycan dövləti, Azərbaycan xalqı olacaq!"-deyə, K.Əliyeva vurğulayıb. yap.org.az

***Ceyhun Rasimoğlu***

---

# "Ermənistan separatçı rejim kimi bədnam qonşularımız var"

***"Azərbaycan Silahlı Qüvvələrinin bölmələri bütün karantin dövrü ərzində ölkənin bütün ərazilərində bütün qoşun növlərinin taktiki-praktik, komanda-qərargah və digər təlimlərini keçiriblər. Bu gün Azərbaycan Ordusunun döyüşçüləri müharibə sənəti bacarıqlarını inkişaf etdiriblər". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib.***



Deputatın sözlərinə görə, cənab Prezident İlham Əliyevin tapşırığı əsasında bu gün ölkənin bütün sahələri kimi ordu quruculuğuna xüsusi diqqət var: "90-cı illərin əvvəllərində hakimiyyətdə olan səriştəsiz insanların ucbatından torpaqlarımızın 20 faizi Ermənistan separatçıları tərəfindən işğal edilib. BMT-nin 4 qətnaməsinə baxmayaraq Azərbaycan torpaqlarının 20 faizi Ermənistan separatçı rejim tərəfindən işğal altında saxlanılır. Eyni zamanda koronavirus pandemiyası dövründə karantin rejimin qorunması ilə bağlı polislərimizlə birlikdə əsgərlərimiz də böyük şücaət göstərirlər. Bundan əlavə Milli Ordumuz döyüş təlimlərini də davam etdirir. Çünki biz unutmamalıyıq ki, Ermənistan separatçı rejim kimi bədnam qonşularımız var. Hər il dünyanın nüfuzlu beynəlxalq təşkilatların açıqlamasında ölkəmizin iqtisadi göstəriciləri ilə yanaşı Azərbaycan ordusu döyüş hazırlığına və hərbi texniki bazasına görə yüksək pillələrə doğru yüksəldiyi qeyd edilir. Əlbəttə ki, bu cənab Prezidentimizin və dövlətimizin ordumuzun möhkəmləndirilməsi istiqamətində zamanında atdığı addımlar sayəsindədir. Məhz cənab Prezidentin qayğısı sayəsində bu gün silahlı qüvvələrimiz güclü ordular sırasındadır".

# Vətəndaş məktubları: "Atdığınız qətiyyətli addımlarla bir daha sübut etdiniz ki, Siz hər bir vətəndaşın Prezidentisiniz!"

***Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Sumqayıt Şəhər Ağsaqqallar Şurasının sədri Müzəffər Gülümov yazır: "Möhtərəm cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin "Kiçik bir Azərbaycan" adlandırdığı gözəl Sumqayıt şəhərinin ağsaqqalları adından Sizi salamlayıram. Ulu Öndərimiz Sumqayıta, onun zəhmətkeş insanlarına və şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Sumqayıtın bir şəhər kimi formalaşması və inkişafı böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Biz sumqayıtlılar çox sevinirik ki, Ulu Öndərimizin şəhərimizə olan bu isti münasibəti Sizin tərəfinizdən uğurla davam etdirilir. Birbaşa diqqət və qayğınız sayəsində, xüsusən son illərdə şəhərimizdə yaradılan çoxsaylı sosial-ictimai və sənaye müəssisələri Sumqayıtı daha da inkişaf etdirmiş və müasir, abad, işıqlı bir şəhərə çevirmişdir. Cənab Prezident, koronavirus pandemiyası nəticəsində bu gün dünya iqtisadi çətinlik və böhran girdabındadır. Mövcud çətinliklərə baxmayaraq, respublikamızda nəzərdə tutulan sosial layihələr dayandırılmır, qrafikə uyğun olaraq öz həllini tapır. Heç bir sosial proqram ixtisar olunmayan Azərbaycanda dövlətimizin başçısının siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sumqayıt şəhərinə çəkilən yeni magistral qaz xətti də Sizin sumqayıtlılara yeni töhfəniz oldu. Bu alternativ qaz kəməri, ilk növbədə, sakinlərimizi və eləcə də sənaye müəssisələrini dayanıqlı qazla təmin edəcək. Hörmətli Prezidentimiz, sərəncamlarınız və verdiyiniz xüsusi tapşırıqlar əsasında vaxtında qabaqlayıcı tədbirlərin görülməsi sayəsində bu qorxulu və dəhşətli koronavirus pandemiyasının yayılma sürətinin xeyli aşağı salınması mümkün oldu. Dünyada koronavirusla mübarizənin çox yüksək səviyyədə və peşəkarlıqla təşkil olunduğu ölkələrdən biri də məhz Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizdə pandemiyanın qarşısının alınması üçün görülən tədbirləri yüksək qiymətləndirir. Sizin tapşırığınıza əsasən şəhərimizdə ahıllara, 65 yaşdan yuxarı tənha insanlara, aztəminatlı ailələrə gündəlik qayğı və yardım göstərilir. Cənab Prezident, həmişə olduğu kimi, bu gün də Sizin və Mehriban xanımın xalqa hansı məhəbbətlə bağlı olduğunuzu görürük. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən işlər də xüsusi alqışalayiqdir. Siz həmişə əsl rəhbər kimi hər birimizə dayaq, dəstək olmusunuz. Sizə Sumqayıtın çoxsaylı ağsaqqallarının, şəhər əhalisinin dərin hörmət və ehtiramını, şəhərimizin inkişafına, çiçəklənməsinə göstərdiyiniz diqqətə və qayğıya görə minnətdarlığını, təşəkkürünü çatdırıram. Xalqımızın rifahı və xoşbəxt gələcəyi naminə Sizə, hörmətli Mehriban xanıma, ailənizə möhkəm cansağlığı, daha böyük uğurlar arzu edirik. Uca Tanrı Sizi Qorusun!".

Masallı rayonu Dəmirçi kənd ümumi orta məktəbinin 8-ci sinif şagirdi Nihat Cavadov: "Möhtərəm cənab Prezident, dünyada yayılan nadir yoluxucu xəstəliklərdən biri də məhz son günlərdə bütün planeti qorxuya salan koronavirus pandemiyasıdır. Ölkəmizdə koronavirus xəstəliyinin geniş yayılmasının qarşısının alınması üçün Sizin tərəfinizdən görülən qabaqlayıcı tədbirlər xalqımızı böyük bir təhlükədən artıq xilas etməkdədir. Bu, bütün Azərbaycan xalqını çox sevindirir. Doğrudur, xalqımız əsrlərboyu ağır günlər keçirib, lakin ulu öndər Heydər Əliyevin və Sizin sayənizdə gözəl günlərə qədəm qoyub. Siz dövlətimiz üzərində parlayan günəşsiniz. Allah Sizi qorusun! Pandemiya dövründə biz məktəblilər evdə qalmağımıza baxmayaraq, təhsildən geri qalmır, bir çox vasitələrdə dərslərimizi yüksək səviyyədə davam etdiririk. Evdə qaldığımız bu müvəqqəti günlərdə Sizin qəbul etdiyiniz qərarlarla biz gələcəyə daha uğurla və inamla addımlayırıq. Bu məktubu yazmaqda məqsədim Sizin Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğıya, xüsusilə də biz şagirdləri düşünərək, təhsildə gördüyünüz tədbirlərə görə təşəkkürümü bildirməkdir. Böyük inamla söyləyirəm ki, bütün Azərbaycan xalqı Sizi dərin sevgi bəsləyir".

Bakının Binəqədi rayonundan 7-ci sinif şagirdi Nəzrin Həsənli: "Hörmətli cənab Prezident, hazırda koronavirus pandemiyasının geniş vüsət aldığı bir dövrdə yaşayırıq. Buna baxmayaraq, Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi itkilərimizin digər ölkələrlə müqayisədə daha az olmasına gətirib çıxardı. Məhz Sizin göstərdiyiniz səylər nəticəsində bu virusun qarşısı tez bir zamanda alındı. "Evdə qal" çağırışınız, əhalinin daha sıx toplaşdığı məkanların bağlanması, ölkəmizdə elan olunmuş xüsusi karantin rejimi bunun sübutudur. Cənab Prezident, atdığınız məqsədyönlü addımlar bir daha sübut edir ki, Siz və Mehriban xanım Əliyeva daim xalqın yanındasınız. Xalqımızın evdə qaldığı müddətdə insanlara göstərdiyiniz maddi və mənəvi dəstəyə, onların rifahının yaxşılaşdırılması üçün dövlət büdcəsindən ayırdığınız vəsaitə görə çox sağ olun. Azərbaycan Sizinlə gözəldir, cənab Prezident! Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. Biz birlikdə güclüyük!".

Laçın rayonundan məcburi köçkün Əli Abbasov: "Cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasına qarşı həyata keçirdiyiniz qabaqlayıcı tədbirlərə, planetimizin inkişaf etmiş, aparıcı dövlətləri ilə müqayisədə Azərbaycanı bu bəladan minimum itki ilə xilas etdiyinizə, bu ağır günlərdə gecə-gündüz yorulmadan çalışdığınıza, hər bir vətəndaşa maddi və mənəvi dəstək göstərdiyinizə, əsl valideyn qayğısına görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya özümün və ailəmin adından dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Ulu Tanrı Sizi və Sizin rəhbərliyinizlə xalqımızı qorusun!".

Zaqatala rayonundan ağsaqqal İsa Əhmədov: "Möhtərəm cənab Prezident, son vaxtlar dünyada geniş vüsət almış koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması, ölkəmizin, xalqımızın pandemiya ilə mübarizədən qalib çıxması üçün tərəfinizdən görülən qabaqlayıcı tədbirlər biz ağsaqqallar tərəfindən də rəğbətlə qarşılanır. Siz ilk günlərdən bütün qüvvələri səfərbər edərək mümkün tədbirləri həyata keçirdiniz, hər zaman olduğu kimi, bu çətin anda da vətəndaşların yanında, onların xidmətində oldunuz. Bu çətin günlərdə dövlətimiz, xalqımız üçün gördüyünüz işlər, göstərdiyiniz fədakarlıq, yorulmaz fəaliyyətiniz bizi daha da ruhlandırır. Bu gün Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə tədbirləri, həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunədir. Bəşəriyyəti bürüyən bu bəladan qorunmaq üçün xalqa etdiyiniz müraciətləriniz, qısa müddət ərzində ölkəmizdə 14 laboratoriyanın fəaliyyətə başlaması, "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi, tibbi maska istehsal edən müəssisənin açılışı, sosial paketin həyata keçirilməsi üçün böyük həcmdə maliyyə vəsaitinin ayrılması sübut edir ki, ölkəmizdə bütün lazımi addımlar ən yüksək səviyyədə atılır. Biz ağsaqqallar da dövlətimizə, onun gücünə, gördüyünüz işlərə fərdi məsuliyyətimizlə dəstək olacaq, bəşəriyyəti bürüyən bu bəladan uğurla çıxacağıq. Azərbaycan xalqının sağlamlığının qorunmasına xidmət edən fəaliyyətinizə görə Sizə dərin təşəkkürümüzü bildirir, möhkəm cansağlığı arzu edirik".

Cəlilabad şəhərindən Səadət xanım Cabbarova: "Hörmətli cənab Ali Baş Komandan, Sizə 70 yaşlı ağbirçək qadın, 6 övlad anası, 11 nəvə nənəsi kimi müraciət edirəm. Külfətimin, el-obamın bu gününün, sabahının etibarlı əllərdə olması məni həm sevindirir, həm də daha çox yaşayıb-yaratmağa həvəsləndirir. Sizin gördüyünüz işlər, xalqımıza hər zaman qayğıkeş münasibət göstərib dar gündə qucaq açmağınız bir ağbirçək kimi şəxsən mənə ruh verir. Bu çətin pandemiya dövründə uzaqgörənliyiniz sayəsində bizi bəladan az itki ilə xilas etdiyinizə, xüsusilə yaşlı nəslə göstərdiyiniz qayğıya görə Sizə minnətdaram. Mən bu müqəddəs ayda oruc tuturam. Bütün Ramazan boyu Sizə və ailənizə dua edəcəyəm".

Şabran rayonunun Gəndov kəndindən 6-cı sinif şagirdi Şəfa Umudova: "Hörmətli cənab Prezidentimiz, karantin müddətində Sizin etdiyiniz yaxşılıqları görmüşəm, həqiqətən çox qayğıkeş bir dövlət başçısı olduğunuzu da bilirəm. Siz bu çətin günlərdə vətəndaşların yanında oldunuz, aztəminatlı ailələrə və yaşlı insanlara yardım etdiniz. Buna görə də Sizə dərin təşəkkürümü bildirirəm. Ailə üzvlərimiz və mən Sizi çox sevirik. Biz fəxr edirik ki, Azərbaycan xalqının Sizin kimi qayğıkeş Prezidenti var".

Şəmkir şəhərindən Natiq Əliyev: "Hörmətli cənab Prezident, Sizə və Mehriban xanım Əliyevaya səmimi təşəkkürlərimi çatdırıram. Sizlərə Allah tərəfindən ən ali, ən yüksək xüsusiyyətlər, insanlığın ən yüksək zirvəsi bəxş edilib. Siz isə bu zirvədən xalqa xidmət edir, onun qayğısına qalırsınız. Əslində, Sizin xalq üçün etdikləriniz gələcəkdə cild-cild kitablarda əks olunacaq. Böyük Yaradandan Sizə və Mehriban xanıma uzun ömür, cansağlığı arzulayıram".

Şəki rayonunun Şəki kəndindən Bayram Zeynalov: "Çox hörmətli cənab Prezident, mənim 79 yaşım var. Ailəliklə Sizi dəstəkləyirik. Bu çətin günlərdə Sizin xalqımıza göstərdiyiniz qayğı ölçüyəgəlməzdir. Sizin kimi görkəmli

# Vətəndaş məktubları: "Atdığınız qətiyyətli addımlarla bir daha sübut etdiniz ki, Siz hər bir vətəndaşın Prezidentisiniz!"

şəxsiyyətin rəhbərlik etdiyi bir ölkədə yaşamağın özü bir xoşbəxtlikdir. Sizə olan səmimi münasibətimi ifadə etmək üçün söz də tapmıram. Çünki Siz xalqımızı bu qorxulu xəstəlikdən qorudunuz. Dünyanın heç bir ölkəsində vətəndaşa belə böyük qayğı göstərilmədi. Uca Allah Sizi və ailənizi, övladlarınızı pənahında saxlasın!".

Ağstafa rayonundan Ayşən Tağızadə: "Əziz və hörmətli cənab Prezidentimiz, ölkəmizdə görülən işlər, əhalinin güzəranını yaxşılaşdırmaq üçün atılan addımlar üçün Sizə dərin təşəkkürümü bildirirəm. Çətin bir sınaqla üz-üzəyik. Amma Sizin uzaqgörənliyiniz, verdiyiniz qərarlar, imzaladığınız sərəncamlar sayəsində Azərbaycan xalqı bu bəladan, çox şükür ki, ziyansız ötüşməkdədir. Ölkəmizdə aztəminatlı ailələrə verilən birdəfəlik müavinətlər, yardımlar üçün Sizə təşəkkür edirəm. Sizin ölkəmizdə karantin rejimi ilə əlaqədar gördüyünüz işləri dəstəkləyirik. Siz var olduqca, Azərbaycan xalqı da yaşayacaq! Allah Sizə, ailənizə cansağlığı, uzun ömür versin! Ümid edirəm ki, hər bir çətinlikdən üzüağ çıxan Azərbaycan xalqı bu çətinlikdən də ziyansız, xətasız və bəlasız qurtulacaq. Biz Sizinlə güclüyük!".

Ağcabədi rayonunun Avşar kəndindən İqbal Abdullayev: "Hörmətli cənab Prezident, tarix sübut edir ki, güclü və müdrik lider hər bir xalq, hər bir dövlət üçün çox mühüm amildir. Biz bunu müstəqil Azərbaycanımızın timsalında da görmüşük və bu gün də görürük. Ulu öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdisə, Siz də bu gün Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Son vaxtlar yaşanan hadisələr bunu bir daha sübut edir. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, bu mübarizədən qalib ayrılacaq. Cənab Ali Baş Komandan, şəhid Milli Qəhrəman Abdullayev Namiq Vahid oğlunun ailəsi Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və Sizə hər zaman güvənir".

Xaçmaz rayonunun sakini Nuranə Hacımirzəyevanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, Azərbaycan xalqının lideri kimi atdığınız mötəbər addımlara, ən ağır zamanlarda öz xalqınızın yanında olduğunuza görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Dünyada böyük bəlaya çevrilən koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Belə bir vəziyyətdə Siz öz vətəndaşlarınızın yanında oldunuz. Cənab Prezident, insanların sağlamlığının qorunması məqsədilə gördüyünüz işlər, qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür və hər bir vətəndaşın qayğısına qalırsınız. Sizin hər bir işiniz xalqımız tərəfindən dəstəklənir. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işlərə, yorulmaz fəaliyyətinizə, Sizin və Mehriban xanımın bu dar gündə xalqımıza verdiyiniz dəstəyə görə bir gənc olaraq Sizə təşəkkür edirəm. Allah-Təala Sizi və ailənizi qorusun!".

Qax rayonunun Ağyazı kəndinin sakini Məhəmməd Əlləzov: "Hörmətli cənab Prezident, son vaxtlar dünyada geniş yayılmış koronavirus pandemiyası təəssüf ki, ölkəmizdən də yan keçməyib. Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi bu məsələyə necə ciddi yanaşıldığını göstərir. Bu çətin dövrdə xalqımızın sağlamlığı, sosial rifahı və müdafiəsinin tam təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə Sizə təşəkkür edirəm. Bu istiqamətdə görülən işlərdən biri də vətəndaşların sosial işçi layihəsi çərçivəsində mənim kimi minlərlə vətəndaşa iş yerlərinin verilməsidir. Sizə bu çətin dövrdə gördüyünüz işlərdə yeni uğurlar arzulayırıq. Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir. Sizin də dediyiniz kimi, "Biz birlikdə güclüyük!".

İmişli rayonunun Otuziki kəndinin sakini Gülsüm İbrahimova: "Hörmətli cənab Prezident, bildiyimiz kimi, bütün dünyaya yayılmış koronavirus pandemiyası bizim ölkəmizdən də yan keçmədi. Lakin Sizin xüsusi diqqətiniz və nəzarətinizlə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə pandemiya vəziyyəti nəzarət altına alınmış, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Bir fermer olaraq pandemiyanın kənd təsərrüfatına təsirinin minimuma endirilməsi ilə bağlı dövlət tərəfindən görülən tədbirlərin təqdirəlayiq olduğunu xüsusi vurğulamaq istəyirəm. Bu baxımdan kənd təsərrüfatı məhsullarının və xammalının istehsalı, idxalı, tədarükü, saxlanması, daşınması ilə bağlı sərbəst fəaliyyətimizi dəstəklədiyiniz və ölkəmizin mənafeyini daim əsas tutduğunuz üçün Sizə minnətdarıq".

Bərdə rayonunun Hacılar kəndinin sakinləri Cəmaləddin Ağayev və Məhərrəm Bağırov yazırlar: "Hörmətli cənab Prezident, Sizin gərgin əməyiniz nəticəsində ölkəmizin sakinlərinin güzəranı firavandır. Buna görə Sizə bütün bərdəlilərin adından təşəkkür bildiririk. Bu günlərdə yaşadığımız kənd yolu təmir edilib istifadəmizə verildi. Artıq rayon mərkəzinə daha rahat və qısa vaxt sərf etməklə çatırıq. Ulu Öndərimizin sözləri ilə desək, yol mədəniyyət, iqtisadiyyat, bir sözlə həyat deməkdir. Cənab Prezident, bizə bu yolu qismət etməklə yeni həyat bəxş etdiniz. Hacılar kəndinin bütün sakinləri göstərdiyiniz qayğıya görə Sizə təşəkkür edir".

Gəncə şəhərindən Solmaz Qəmbərova: "Möhtərəm cənab Prezident, Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın bu çətin günündə, qorxu və təlaş içində yaşadığı zamanda ona arxa duraraq xalqımıza, Vətənimizə layiqli Prezident olduğunuzu bir daha sübut etdiniz. Sizin uzaqgörənliyiniz, yüksək idarəçilik qabiliyyətiniz bizi valeh etdi. Sizin çağırışlarınıza canla-başla əməl edirik. Ona görə ki, Siz dəfələrlə xalqımızı çətin vəziyyətlərdən çıxarmış, diqqət və qayğınızı bizdən əsirgəməmisiniz. Azərbaycan bugünkü şöhrətinə Sizin sayənizdə nail olub. Sizin vaxtında verdiyiniz qərarlar, sərəncamlar ölkəmizdə pandemiyanın yayılmasının qarşısını aldı. Buna görə həm öz adımdan, həm də ailəmin adından Sizə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, bu arada böyük şairimiz Səməd Vurğunun bu misralarını xatırlamaq yerinə düşər: "Vətənçin yaşayan, Vətənçin ölən, Səmimi bir insan nə bəxtiyardır". Bəli, Siz xalqımızın, Vətənimizin rifahı üçün həmişə əzmlə çalışan layiqli öndərin layiqli davamçısı olduğunuzu bir daha sübut etdiniz. Biz bir daha əmin olduq ki, müdrik şəxsiyyətin ardınca addımlayırıq. Sizinlə fəxr edirik".

Göyçay rayonunun Çərəkə kəndinin sakini Ayaz Daşdəmirov: "Hörmətli cənab Prezident, dünyada baş verən COVID-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması üçün tərəfinizdən qabaqlayıcı tədbirlər görüldü. Azərbaycan xalqı hər məsələdə olduğu kimi, bu çətin anlarda da Sizinlə həmrəyliyik nümayiş etdirdi. Sizin qərarınızla xüsusi karantin rejiminin elan olunması xalqa yüksək qayğınızın bariz nümunəsi olmaqla yanaşı, həm də onun sağlamlığının qorunması istiqamətində atılan ən düzgün addımlardan biridir. Cənab Prezident, gördüyünüz bütün işlərə görə şəxsən öz adımdan və ailəmin adından Sizə təşəkkürümü bildirirəm. Gördüyünüz bu tədbirlər Azərbaycan xalqının qəlbində daim yaşayacaq. Sizə və ailə üzvlərinizə dünyada ən qiymətli nemət olan cansağlığı arzulayıram".

Cəlilabad rayon, Göytəpə şəhər, V.Mürsəlov adına 1 saylı tam orta məktəbin müəllimi Şəlalə Səfərəliyeva: "Möhtərəm Prezident, məktubumu Sizə həmişə dövlətin maraqlarını öz şəxsi maraqlarından üstün tutan ziyalı bir ailənin övladı, peşəsinə qəlbən bağlı olan müəllim, sərhədlərimizin keşiyində ayıq-sayıq dayanan hərbçi ailəsi, ən başlıcası isə vətənpərvər Azərbaycan qadını kimi ünvanlayıram. Bu gün dünyanı cənginə alan koronavirusla mübarizə aparmaq üçün atdığınız uğurlu addımlar, xalqımıza göstərdiyiniz qayğı dünyanın əksər ölkələri üçün nümunədir. "Biz birlikdə güclüyük!" şüarınız xalqın Sizə olan inamını bir daha artırmaqla yanaşı, xalqımıza verdiyiniz dəyərin, çətin günlərdə arxamızda olmağınızın bariz təzahürüdür. Möhtərəm Prezident, xalqımızın bütün sosial qruplarını düşünərək həyata keçirdiyiniz siyasəti alqışlayır, daxil olduğum bütün sosial qrupların xalqını, dövlətini sevən üzvləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Tanrı Sizi qorusun!".

Abşeron rayonundan Amil Eyvazlı: "Möhtərəm cənab Prezident, mən Sizə və Birinci Vitseprezidentimiz Mehriban xanım Əliyevaya öz adımdan və ailəmin adından dərin minnətdarlığımı bildirirəm. Bu pandemiya dövründə uğurlu siyasətiniz nəticəsində xəstəliyin qarşısı alındı və tez bir zamanda əvvəlki həyatımıza dönəcəyik. Karantin dövründə işsiz vətəndaşlara birdəfəlik ödənilən 190 manat müavinət və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin təşkil etdiyi "Biz birlikdə güclüyük!" adlı yardım kampaniyasına görə Sizə bir daha təşəkkür edirik. Biz bu gün sayənizdə həmin yardımı aldıq. Allah Sizi qorusun! Sizə hər zaman dəstəyik".

Goranboy rayonundan şagird Gül İbrahimova yazır: "Sevimli prezidentimiz, Azərbaycan xalqının dəyərli rəhbəri, Siz bu çətin vaxtlarda - pandemiya dövründə bizlərin qayğısına qaldınız. Düzgün qərarlarınızla virusun əhali arasında daha çox yayılmasının qarşısını aldınız, xalqımıza əsl atalıq qayğısı göstərdiniz. Biz şagirdlər evdə qalsaq da, Sizin sayənizdə onlayn dərslərlə təhsildən qalmadıq. Buna görə Sizə dərin minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, varsınız və bizim Prezidentimizsiniz".

Yardımlı şəhərindən 89 yaşlı təqaüdçü və keçmiş dövlət qulluqçusu Gülhüseyn Məmmədov: "Möhtərəm cənab Prezident, ataların belə bir məsəli var: "Dost dar gündə tanınar". İcazə verin, Sizə dost kimi müraciət edim. Həqiqətən, Siz təkcə Prezident və rəhbər deyil, həm də biz insanların yaxın dostusunuz. Əziz dost, Siz prezidentlik fəaliyyətinə başladığınız ilk vaxtlardan verdiyiniz sərəncamlar və həyata keçirdiyiniz bütün tədbirlərlə bunu bariz şəkildə sübut etmisiniz. Son vaxtlar dünyada cərəyan edən virus Azərbaycandan da yan keçməmişdir. Belə vaxtda Sizin həyata keçirdiyiniz qabaqlayıcı islahatlar nəticəsində xəstəlik dünyanın başqa dövlətlərinə nisbətən çox yüngül keçir. Bu, Sizin uzaqgörənliyinizin nəticəsidir. Belə bir vaxtda xəstələrə göstərilən tibbi qayğı və müalicə ilə yanaşı, biz insanlara göstərdiyiniz hər cür yardım, pul və ərzaq verilməsi Sizin bizlərə olan qayğınızdır. Dostlarınızı darda qoymadınız. Biz Sizinləyik. Sizin dediyiniz kimi, virusa birlikdə qalib gələcəyik. Sizin rəhbərliyiniz altında Vətənimizi düşmən tapdağından da azad edəcəyik. O gün uzaq deyil. O günü Siz dostumuzla birlikdə bayram edəcəyik. Cənab Prezident, dövlətimizin daha da qüvvətlənməsi, insanlarımızın maddi rifahının yaxşılaşdırılması, iqtisadi və hərbi qüdrətimizin daha da inkişaf etdirilməsi istiqamətində işlərinizdə, prezidentlik fəaliyyətinizdə Sizə böyük uğurlar və möhkəm cansağlığı arzulayıram. Allah Sizi qorusun!".

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən Yolçu Əliyev: "Möhtərəm cənab Prezident, dünyanı cənginə alan koronavirusun ölkəmizə zərərinin minimuma endirilməsi üçün görülən tədbirlər Sizin hər bir azərbaycanlının Prezidenti olduğunuzu sübut edir. Hər gün dünyada yüzlərlə insan bu pandemiyanın qurbanı olur. Koronavirus infeksiyasına qarşı gördüyünüz qabaqlayıcı tədbirlər xalqımızı bu bəladan xilas etməkdədir. Karantin rejimi dövründə işləməyənlərə birdəfəlik yardımların verilməsi Sizin xalqımıza göstərdiyiniz qayğının növbəti nümunəsidir. COVID-19 infeksiyası dünyanın ən qüdrətli dövlətlərində ciddi tələfatlara səbəb olaraq hökmranlıq etsə də, ölkəmizə ciddi ziyan vura bilmədi. Bu, bir daha göstərdi ki, Azərbaycanda görülən tədbirlər səmərəlidir. Həm də onu göstərdi ki, ölkəmiz əmin əllərdədir. Xalqımız da gedən proseslərdən qürurlanır. Cənab Prezident, hər bir vətəndaşın qayğısına qalaraq ölkəmizin inkişafı, xalqımızın rifahı üçün yorulmadan çalışdığınıza görə Sizə və Mehriban xanım Əliyevaya şəxsən öz adımdan və ailəmin adından dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Allah Sizləri qorusun!".

Ardı Səh. 10

# Vətəndaş məktubları: "Atdığınız qətiyyətli addımlarla bir daha sübut etdiniz ki, Siz hər bir vətəndaşın Prezidentisiniz!"

Əvvəli Səh. 9

Ağdam rayonundan məcburi köçkün Hüseynağa Hacıyev: "Möhtərəm cənab Prezident, Sizin kimi Prezidentimizin olması ilə fəxr edirik. Qürur duyuruq ki, yaxşı günümüzdə də, çətin vaxtlarımızda da bizimləsiniz. Prezidentimizi, həkimlərimizi və əməyi keçən digər vətəndaşlarımızı Allah qorusun! Bu çətin günlərdə əhaliyə göstərdiyiniz diqqət və qayğıya, koronavirusun yayılmasının qarşısının alınması istiqamətində rəhbərliyinizlə görülən tədbirlərə görə Ağdam məcburi köçkünləri adından Sizə təşəkkür edirik. Ağdamda hər kəs karantin qaydalarına əməl edir, yaşlı insanların qayğısına qalır. Dünyanı bürüyən koronavirus bəlasından dövlətimizin, xalqımızın az itkilərlə çıxması üçün verdiyiniz bütün qərarları biz məcburi köçkünlər də dəstəkləyir, qoyulan qaydalara əməl edirik".

Şamaxı şəhərindən Aliyə Bədirxanova, Məryəm İbrahimova, Mehman Vəlizadə və Yasər Rüstəmov yazırlar: "Çox hörmətli və qayğıkeş Prezidentimiz, dünyada geniş yayılmış yeni növ koronavirus infeksiyasının respublikamızda yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz bütün tədbirlər bir daha sübut edir ki, hər zaman olduğu kimi Azərbaycan Prezidenti öz xalqının yanındadır. Sizin rəhbərliyinizlə ölkəmizdə görülən bu mühüm işlər təqdirəlayiqdir. Qəbul edilən qərarlara uyğun olaraq, rayonumuzda da xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlər görülməsi davam etdirilir. Aztəminatlı ailələrə, xüsusilə yaşı 65-dən yuxarı olan tənha şəxslərə davamlı sosial-məişət xidmətləri, maddi yardım göstərilir, əhalinin sağlamlığının qorunması üçün mühüm işlər görülür.

Cənab Prezident, qabaqlayıcı tədbirlərin vaxtında keçirilməsi, verdiyiniz qətiyyətli tapşırıqlar öz səmərəsini verir. Biz inanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycanımız bu bəladan da üzüağ çıxacaq. Bir daha bu çətin günlərdə əhaliyə göstərilən qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk".

Xırdalan şəhərindən Elnur Dünyamalıyev: "Hörmətli cənab Prezident, mən dövlətimizin sıravi vətəndaşı olaraq Sizin dövlətimizin inkişafı, xalqımızın rifahı yolunda gördüyünüz işləri çox yüksək qiymətləndirir, özüm və ailəm adından Sizə və çox hörmətli Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizin keçirdiyiniz görüşləri, istər ölkə daxilində, istərsə də ölkəmizin hüdudlarından kənarda, beynəlxalq tədbirlərdə söylədiyiniz nitqləri böyük həvəslə dinləyirəm. İstərdim biləsiniz ki, Sizin xüsusilə sadə insanların hüquq və maraqları uğrunda çıxışlarınız bizlərdə böyük ruh yüksəkliyi oyadır, bizlərə işıqlı sabahlar naminə böyük həvəslə çalışmaq əzmi verir. Cənab Prezident, dövlətimizin Sizin kimi rəhbəri olduğuna görə özümü çox xoşbəxt hiss edirəm. Allah Sizi və ailənizi qorusun!".

Tovuz rayonunun sakinləri Kamal Ələsgərov və Elqam Tağıyev yazırlar: "Hörmətli cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınıza qoşulan Azərbaycan xalqı bu sınaqdan üzüağ çıxacaq. Siz bu həssas məqamda xalqımızı nəinki bu bəladan qorudunuz, həmçinin vətəndaşların rifahı üçün 3,5 milyard manatlıq sosial yardım paketi ayırdınız. Bu yardım proqramı Sizin və Mehriban xanım Əliyevanın xalqın rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyi məqsədyönlü dövlət siyasətinin əyani təcəssümüdür. Bu qayğıya görə Allah sizləri pənahında saxlasın! Möhtərəm cənab Prezident, xalqımızın Sizin ətrafınızda sıx birləşməsi Sizə olan böyük sevginin və inamın göstəricisidir. Biz bu çətin günlərdə fermerlərə yaradılan şəraitdən istifadə edərək təsərrüfatımızla məşğul ola bilirik. Dövlətimizin kənd təsərrüfatı istehsalçılarına dəstəyi nəticəsində bu sahə prioritet sahəyə çevrilmişdir. Tovuzlu fermerlər adından Sizə sonsuz inamımızı və təşəkkürümüzü bildiririk. Göstərdiyiniz bu yüksək etimadı və qayğını hər zaman doğruldacağıq. Sizin ətrafınızda daha sıx birləşərək Azərbaycan Respublikasının tərəqqisi üçün fəaliyyət göstərəcəyik".

Xırdalan şəhərindən tələbə Babək İsmayılzadə: "Hörmətli cənab Prezident, mən Bakı Dövlət Universitetinin Tarix fakültəsinin ikinci kurs tələbəsiyəm. Sizə bu məktubu yazmaqla bildirmək istəyirəm ki, belə çətin günlərdə xalqa göstərmiş olduğunuz diqqət və qayğı ən yüksək qiymətə layiqdir. Sizin imzaladığınız fərman və sərəncamlar bir daha sübut etdi ki, dövlətin ali məqsədi xalqın rifahını təmin etməkdir. Mən bir gənc tarixçi olaraq Sizin siyasətinizi ürəkdən dəstəkləyirəm. Şəxsən öz adımdan, ailəmizin adından, eləcə də tələbəsi olduğum Bakı Dövlət Universitetinin gənc kollektivi adından Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin hörmət və minnətdarlığımı bildirirəm. Gəncləşən və güclənən Azərbaycan uğrunda daim irəli!".

Saatlı rayonundan Əsmər Zaidova: "Möhtərəm cənab Prezident, bütün dünyanı cənginə almış koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində atdığınız addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyünüz işlər üçün Sizə minnətdarıq. Göstərdiyiniz qayğıya, sevgiyə, diqqətə görə çox sevinirik. Sizin hər zaman öz xalqınızla birlikdə addımlamağınız, bizim kimi vətəndaşların xəstəliyə qarşı qorxusunu azaldır. Aztəminatlı ailələrə yardım etməniz də böyük rəğbətlə qarşılanır. Göstərdiyiniz yardımlar saymaqla bitməz. Cənab Prezident, bütün bu işlərə görə Sizə təşəkkür edirik. Saatlı rayonunun əhalisi də Sizin "Evdə qal" çağırışınıza ciddi əməl edir və Sizi dəstəkləyir. İnşallah bu çətinliyin öhdəsindən birlikdə gələcəyik. Sizə inanırıq və bilirik ki, Sizin sayənizdə tezliklə həyatımız əvvəlki kimi öz axarı ilə davam edəcək. Yaxşı ki varsınız, əziz Prezidentimiz!".

Bakı şəhərinin Xəzər rayonundan Rövşən Osmanov: "Hörmətli cənab Prezident, uzun illərdir ki, Ermənistan kimi virusla mübarizə aparırıq. Bu gün isə dünyamıza və ölkəmizə koronavirus bəlası gəlmişdir. Sizin vaxtında gördüyünüz tədbirlər ölkəmizdə bir sıra problemlərin qarşısını almışdır. Mən fəxr edirəm ki, Sizin kimi humanist, vətənsevər Prezidentimiz var. Sizi və ailənizi çox sevirik. Bizim ən böyük arzumuz müqəddəs bayrağımızı Qarabağımızda dalğalandırmaqdır. Mən inanıram ki, Siz bizim ana yurdumuz olan Qarabağımızı düşmən əlindən alacaqsınız. Allah Sizə və ailənizə cansağlığı versin. Yaşasın bizi Qarabağımıza aparan Ali Baş Komandanımız! Yaşasın qüdrətli Azərbaycanımız!".

Naftalan şəhərinin sakini Faiq Rüstəmov: "Möhtərəm cənab Prezidentimiz, bu gün bir daha canlı şahidi olduq ki, bizim Prezidentimiz risklərin qarşısını almaq, onları idarə etmək sahəsində böyük təcrübəyə malikdir. Dünya ölkələri koronavirusla mübarizədə Sizin tərəfinizdən ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirləri, insanların sağlamlığını qorumaq üçün verdiyiniz qərarları nümunə götürür və özlərində tətbiq etməyə çalışırlar. Sizin zəhmətləriniz hesabına ölkəmiz beynəlxalq aləmdə öz sözünü deyən, regionun və dünyanın sayılıb seçilən qüdrətli dövlətdir. Sizin vətəndaşlarımızın hər bir problemi ilə yaxından maraqlanmağınız, onlara dəstək olmağınız bizi qürurlandırır. Azərbaycanı qoruduğunuza, xalqımızla daim bir yerdə olduğunuza görə Sizə minnətdarıq. Sevinirik ki, rəhbərimiz öz xalqına bu qədər diqqət ayırır. İnanırıq ki, Sizin "Biz birlikdə güclüyük!" şüarı ilə səfərbər olan cəmiyyətimiz bəşəriyyəti bürüyən bu bəladan uğurla çıxır. Ulu Tanrı Sizi qorusun, cənab Ali Baş Komandan!".

Qazax şəhərinin sakini Mahmud Nəsibov: "Çox hörmətli cənab Prezident, Azərbaycanımızın üzləşdiyi koronavirus pandemiyası bizim ailəmizi də tapmışdı. Mən Qazax rayon polis şöbəsinin əməkdaşı Nəsibov Mahmud və həyat yoldaşım Cəfərova Samirə bu virusa yoluxanlardan olduq. Müayinə edildikdən sonra dövlətimizin yüksək qayğısı, həkimlərimizin peşəkarlığı və məsuliyyəti nəticəsində Şəmkir rayon mərkəzi xəstəxanasında müalicə aldıq. Allaha şükürlər olsun ki, artıq sağalmışıq. Bu çətin müddət ərzində bizə göstərilən diqqətə və nəvazişə görə Sizə və Birinci vitse-prezident Mehriban xanıma dərin təşəkkürümüzü bildiririk. Ona görə ki, bu pandemiya ilə mübarizədə Siz xalqımızın rifahını, insanlarımızın sağlamlığını hər şeydən öndə tutdunuz. Sizə möhkəm cansağlığı arzulayıram".

Beyləqan şəhərinin sakini Ərəstun Qarayev: "Hörmətli cənab Prezident və əziz Mehriban xanım, dünyamızı böhrana qərq edən, bəşər övladının varlığını təhdid altına alan bu virusa qarşı tərəfinizdən aparılan qətiyyətli mübarizədə Sizə uğurlar arzulayıram. Dövlətimiz tərəfindən görülən qabaqlayıcı tədbirlər, xalqımızın sağlamlığı üçün saymaqla qurtarmayan xeyirxah işləriniz bir daha Sizin nə qədər güclü iradəyə sahib olduğunuzu sübut edir. Azərbaycan xalqının dualarɪ Sizinlədir. Allah Sizi və Sizin simanızda xalqımızı qorusun!".

Lənkəran şəhərinin Xolmili kəndindən şagird Murad Mirzəzadə: "Hörmətli cənab Prezident, mən 11-ci sinif şagirdiyəm. Lənkəran rayonu Bilal Əliyev adına Xolmili kənd tam orta məktəbində oxuyuram. Dərs əlaçısıyam. Sizinlə qürur duyuram. Sizin kimi bir Prezidentimizin olmağı ilə fəxr edirəm. Bu gün dünyanı cənginə alan koronavirus pandemiyası ilə ən güclü dövlətlər belə mübarizə aparmaqda çətinlik çəkirlər. Ancaq Sizin qabaqlayıcı və çevik tədbirləriniz sayəsində ölkəmiz daha az itki ilə xəstəliyə qalib gəlmək ərəfəsindədir. Siz həqiqətən dahi və müdrik lidersiniz. Bizim birlikdə güclü olmağımız təsdiqini tapdı. Bütün xalq Sizinlə fəxr edir, Sizin və birinci xanım Mehriban Əliyevanın ətrafında həmişə sıx birləşməyə hazırdır".

Neftçala rayonunun Birinci Qaralı kəndinin sakini Əlifağa Məmmədov: "Möhtərəm cənab Prezident, Azərbaycan dünyanın digər dövlətləri kimi koronavirus pandemiyası ilə mübarizə dövrünü yaşayır. Əminik ki, Sizin rəhbərliyinizlə biz bu mübarizədən alnıaçıq, üzüağ çıxacağıq. Dövlətimiz tərəfindən imkansız ailələrə verilən ərzaq sovqatlarının təqdim edilməsində rayon könüllüsü olaraq yaxından iştirak edirəm. Göstərilən diqqət və qayğı rayonun hər bir sakinini sevindirir. Cənab Prezident, ən ucqar kəndlərdə yaşayan ağsaqqal atalar, ağbirçək analar Sizin üçün dualar edir, dövlətimizin başında Sizin kimi rəhbər olduğu üçün qürur hissi keçirirlər. Allah xalqımızın alqışını, dualarını savabınıza yazsın, hər zaman yolunuza işıq salsın!".

Ucar şəhərindən Aytən Əliyeva: "Möhtərəm cənab Prezident, əfsuslar olsun ki, dünyanı cənginə alan koronavirus Azərbaycanımıza da gəlib çıxdı. Amma Sizin uzaqgörənliyiniz və qayğıkeşliyiniz sayəsində virusun qarşısı etibarlı şəkildə alınmaqdadır. Bu bəlanın ölkəmizdə daha geniş yayılmasına imkan vermədiniz. İnşallah, çətin günlər arxada qalacaq və ölkəmiz bu virusa qalib gələn dövlətlər arasında yer alacaq. Ölkəmizə tərəqqi və rifah bəxş etdiyinizə, xalqa göstərilən kömək və qayğıkeşliyə görə Sizə və ailənizə təşəkkürümüzü bildirirəm. Nə yaxşı ki varsınız və bizim Azərbaycanımızın Prezidentisiniz. Hər zaman Sizi çox sevəcəyik".

Mingəçevir şəhərindən Qənbər Səfərli: "Hörmətli cənab Prezident, əvvəla Sizi salamlayır və ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildiririk. Dünyada yayılmış COVID-19 pandemiyasının qarşısının vaxtında alınması məqsədilə verdiyiniz bütün tapşırıq və tövsiyələri izləyir və bu işinizi səmimi qəlbdən alqışlayıram. Siz xalqımızın qeydinə qalır, onun sağlam yaşaması üçün əlinizdən gələni əsirgəmirsiniz. Bu çətin günlərimizdə Siz bir daha xalqın qəhrəmanına çevrilmisiniz. Biz Sizinlə fəxr edirik və əminliklə söyləyirik ki, nə yaxşı ki, dövlətimizin rəhbərisiniz. Xalqımızın yolunda gördüyünüz işlərə, yürütdüyünüz siyasətə görə Sizə nə qədər təşəkkür etsək azdır. Allah Sizi qorusun!".

Lənkəran rayonu, Boladi kəndi, N.Axundov adına 1 nömrəli tam orta məktəbinin psixoloqu Kəmalə Səfərova: "Möhtərəm cənab Prezident, dünyanı cənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq məqsədilə uzaqgörənliklə qəbul etdiyiniz qərarlar, rəhbərliyinizlə həyata keçirilən tədbirlər, əldə olunan nəticələr bir vətəndaş, eyni zamanda, təhsil işçisi kimi məndə qürur hissi doğurur. Hər gün müxtəlif informasiya vasitələrindən dünya üzrə pandemiyaya yoluxanların və ölənlərin sayını öyrənirik. Bizdə isə bu rəqəmlərin qat-qat aşağı olması məhz Sizin vaxtında həyata keçirdiyiniz məqsədyönlü tədbirlərin nəticəsidir. Siz hər bir vətəndaşın Prezidentisiniz. Bunu xüsusilə bugünkü çətin dövrdə atdığınız qətiyyətli addımlarla bir daha sübut etdiniz. Şərhə ehtiyac yoxdur. Faktlar danışır. Ulu öndər, müasir Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin siyasi davamçısı kimi onun qurduğu strateji xətti uğurla davam etməyiniz bizi qürurlandırır. Biz də Boladi kənd 1 nömrəli tam orta məktəb olaraq daim Sizin yanınızdayıq və səsinizə səs veririk. Biz birlikdə güclüyük. Bizim Prezidentimiz olduğunuz üçün Sizə təşəkkür edirəm. Biz bütün çətinlikləri məhz Sizin rəhbərliyinizlə aradan qaldıracağıq".

# İqtisadi artım üçün stimullaşdırıcı amillər mövcuddur

***Aparıcı beynəlxalq təşkilatlar, qurumlar və müvafiq şirkətlər tərəfindən proqnozlaşdırılan pozitiv iqtisadı meyarlar, məlum olduğu kimi, neqativ təsirlərlə, məqamlarla üzləşməkdə davam edir. Məhz belə neqativ təsir və məqamlar, xüsusən də ötən ilin sonlarından başlayan infeksiya, sonra isə ÜST tərəfindən elan olunmuş pandemiya səbəbindən bu proqnozlar reallıqdan çox uzaq görünür. Çünki, dünyanı bürüyən və öz cənginə alan pandemiya dalğası hələ də öz sarsıdıcı təsirlərini göstərməkdə davam edir və hələ nə qədər davam edəcəyi də bilinmir.***



Qeyd olunduğu kimi, pandemiyanın öz mənfi təsirləri danılmazdır və bu təsirlər təkcə səhiyyə, sağlamlıq sahəsinə deyil, eyni zamanda iqtisadiyyata da təsirsiz ötüşə bilməz. Bu vəziyyətin iqtisadi göstəricilərə, xüsusən dünya iqtisadiyyatına bu və ya digər formada təsirləri ilə mütləq qarşılaşacağıq. Amma, mütləq şəkildə deyə bilmərik ki, bu təsirlər yalnız mənfi təsirlərdən ibarət olacaq. Əgər dünya iqtisadiyyatının hər 10-15 ildən bir böhranlı vəziyyətlə qarşılaşmasını və bu təsirlər səbəbindən daha təkmil sistemlərin işlənib hazırlandığını nəzərə alsaq, xatırlasaq heç də pessimist əhval-ruhiyyəyə köklənmərik. Çünki, hazırlanacağına şübhə belə olmayan daha təkmil sistemlər daha dayanıqlı iqtisadi mexanizmlərin hazırlanmasına zəmin yaradır.

Pandemiyanın təsirləri nəticəsində Azərbaycan da böhransız ötüşə bilməz. Amma, onu da qeyd etmək yerinə düşərdi ki, bu böhran digər dövlətlərlə müqaisə edilə də bilməz. Çünki, hökumətimiz pandemiya və postpandemiya vəziyyətinin stabilliyi və idarə edilməsi üçün kifayət qədər vəsait sərf etməyi planlaşdırır və bu vəsait 3,5 milyard manat həddinə qədərdir ki, həmin vəsait böhranın qarşısının alınması üçün stimul deməkdir. Dövlət sektorunda, eyni zamanda muzdla çalışanların maliyyələşdirilməsi, ələlxüsus sahibkarlıq subyektlərinə olan yardımlar Azərbaycanın bir dövlət olaraq postpandemiya dövründə nəzərəçarpacaq dərəcədə iqtisadi böhranla üzləşməməsinə stimul yaradacaq.

Təbii ki, pandemiya dövründə qlobal miqyasda olduğu kimi, yəni dünya iqtisadiyyatı kimi Azərbaycan iqtisadiyyatı da arzuolunmaz vəziyyətlə üzləşməli olub. Xüsusən də bu dövrdə pandemiya ilə yanaşı neftin dünya bazarında qiymətinin ehtimal ediləndən də dəfələrlə aşağı düşməsi sözsüz ki, ikinci bir mənfi təsir hesab olunur ölkə iqtisadiyyatına. Amma bir məsələni də unutmaq lazım deyil ki, ölkəmizin kifayət qədər valyuta ehtiyatları var və bu ehtiyatların 60 faizdən artığı dollar, 30 faizi isə Avro ekvivalentindədir. Nəzərə alsaq ki, bu iki valyuta üzrə bu vaxta qədər 4 faizə qədər artım müşahidə olunub, deməli, xərclənənlər haradasa konpensasiya olunmuş hesab edilə bilər.

Ən çox diqqəti çəkən məqam, bir qədər əvvəl qeyd etdiyimiz daha təkmil sistemlərin, daha dayanıqlı iqtisadi sistemlərin yaradılmasıdır ki, bu istiqamətdə də artıq ölkəmizdə pandemiyadan da əvvəl işlərin görüldüyünü etiraf etmək yerinə düşərdi. Bilirik ki, neftin qiyməti dəfələrlə aşağı da düşüb, yenidən qalxıb da. Hətta ötən ilin sonunda, cari ilin əvvəlində qara qızılın minimum aşağı həddi olaraq 55 dollar nəzərdə tutulsa da qiymətlərin bundan da çox aşağı olduğunun şahidi olduq. Bir növ pandemiya dövründə bütün neft ixrac edən ölkələr yaxşı başa düşdülər ki, ehtiyatlar üçün neftə ümid olmaq olmaz və istehsal, emal daha məqsədəuyğundur. Məsələ burasındadır ki, pandemiyadan da uzun zaman əvvəldən Azərbaycanda qeyri-neft sektorunun inkişafı diqqət mərkəzindədir. Xüsusən ölkə başçısı, Cənab Prezident İlham Əliyev qeyri-neft sektoruna, istehsal, emal sənayesinə, kənd təsərrüfatına xüsusi diqqət ayırıb. Təkcə pandemiya dövründə deyil, ondan da çox-çox əvvəldən ölkəmizdə istehsal, emal sahələrinə, kənd təsərrüfatına dövlət dəstəyinin, yardımların hamımız şahidiyik. Bu isə ondan xəbər verir ki, Azərbaycanda hələ pandemiyadan əvvəldən belə daha təkmil sistemlərin, daha dayanıqlı iqtisadi sistemlərin yaradılması istiqamətində addımlar atılır.

Təbii ki, bu tədbirlər ölkə başçısının uzaqgörənliyinin, doğru, düzgün, rasional siyasətinin isbatıdır və bu da öz növbəsində o deməkdir ki, iqtisadi artım üçün ölkəmizdə stimullaşdırıcı amillər artıq mövcuddur. Ola bilsin bu stimullaşdırıcı amillər, ehtiyac üzündən hansısa qərb ölkəsində, Avropada pandemiya dövründə yaranmaqdadır. Lakin, ölkəmizdə bu daha əvvəldən düşünülüb və müvafiq tədbirlər görülüb. Belə tədbirləri, dövlətimizin atdığı addımları, göstərilən dəstəyi təbii ki, saymaqla bitən deyil. Sahibkarlıqla, istehsalla, emalla, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, tədarükü ilə məşğul olanlara subsidiyaların verilməsi, əlavə güzəştlərin tətbiq edilməsi, xüsusilə aqrar sahədə çalışanların texnika ilə, gübrələrlə təmin edilməsi, heyvandarlıqla məşğul olanlara yem tədarükündə dəstək verilməsi, bir çoxlarına iri və xırda buynuzlu heyvanlar verilməsi və sair addımlar dövlətin sadalanan sahələrin, qeyri-neft sektorunun inkişafına marağını isbatlayır. Sozsüz ki, bütün bu atılan addımlar öz növbəsində neftdən asılığın minimuma endirilməsi deməkdir və özü-özlüyündə postpandemiya dövründə həmin sahələrin, yəni qeyri-neft sektorunun inkişafına əsaslı zəmin yaradır. Bu zəmin də əlbəttə ki, stimullaşdırıcı amillər mövcudluğunu cəsarətlə söyləməyə və nikbin proqnozlar verməyə əsas verir.

***İnam Hacıyev***

## "Karantin qaydalarına riayət etməsək..."

"Ölkəmizdə koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunmuş karantin rejiminin qaydalarının qismən yumşaldılması cəmiyyətimizin gündəlik həyatında böyük hərəkətlilik yaratdı. Bu, bir tərəfdən bəzi iş yerlərinin açılması, sosial-iqtisadi münasibətlərin qismən canlanmasına səbəb oldusa, digər tərəfdən pandemiyanın mənfi təsirlərinin artmasına da gətirib çıxara bilər". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım ola və prosesin ikinci dalğası başlaya bilər: "Əhali bilməlidir ki, COVİD-19 xəstəliyi uzunmüddətli prosesdir. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Ona görə də, mütləqdir ki, sərt karantin rejiminin qaydalarına əvvəlki qaydada riayət edək. Nəzərə almaq lazımdır ki, aprel ayının 26-da 28 nəfər virusa yoluxmuşdusa, 29-da bu rəqəm 49 olub. Bu yoluxma sayının artması ondan xəbər verir ki, insanlarımız karantin qaydalarına riayət etmirlər". "Doğrudur, xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlərin sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli yumşaldılması zəruridir, amma epidemioloji vəziyyət tələb edərsə, xəstəliyin dinamikasında artım olarsa, karantin rejimi yenidən sərtləşdirilə, müvafiq məhdudiyyətlər yenidən tətbiq oluna bilər" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, indiki vəziyyətdə hər şey insanlara bağlıdır. Yəni məhdudiyyətlər götürülsə belə, insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, yoluxma halları çoxala bilər: "Məhdudiyyələtin bir qismi aradan qaldırılsa da, virusa yoluxma sürətinin qarşısını almaq üçün ölkədə kütləvi tədbirlər keçirilməməlidir, vətəndaşlar əvvəlki dövrdə olduğu kimi 2 metrlik sosial məsafə tələbinə riayət etməlidirlər. Yaşı 65-dən artıq olan vətəndaşlar evdən çıxmamalıdır".

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, əgər karantin qaydalarına riayət etməsək, pandemiyanın ikinci dalğası başlaya bilər: "Bu səbəbdən də xəstəliyin yeni dalğasına yol verməmək üçün bütün tələblər, o cümlədən şəxsi gigiyena, özünütəcrid, kütləvi toplantılara yol verilməməsi, məsafə saxlanılması və s. kimi məsələlərə, qaydalara riayət olunması zəruridir. Əgər pandemiyanın birinci dalğasını az itki ilə başa vurduqsa, bu, dövlət rəhbərliyinin qətiyyətli qərarları və iradəsi nəticəsində oldu. Yəni, dövlət üzərinə düşəni edib və artıq insanlarımızın növbəsidir ki, pandemiyanın ikinci dalğasının başlanmasının qarşısını alaq. Bunu isə dediyimiz kimi yalnız karantin qaydalarına maksimum şəkildə riayət etməklə edə bilərik. Həqiqətən də, biz birlikdə güclüyük. Əminəm ki, insanlarımız karantin qaydalarına riayət edəcək və xəstəliyin yenidən yayılmasını önləyəcəyik".

***Gülyana***

## Mark Sukkerberq: "Tibbi və iqtisadi nəticələrin pisləşəcəyindən qorxuram"



Facebookun direktoru Mark Sukkerberq, COVID-19 pandemiyası səbəbiylə ABŞ-da tətbiq olunan məhdudlaşdırıcı tədbirləri tələsik qaldırmağın mənfi nəticələri barədə xəbərdarlıq edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu barədə Mark elə Facebookda yazıb. Karantin, Amerika iqtisadiyyatının bütün sektorlarının işini demək olar ki, tamamilə dayandırıb, hansıki, bunun 70% -ə qədəri xidmət sektorudur. Bir ay ərzində 22 milyon insan işsiz qalıb. Mart ayının sonunda dəstək üçün ayrılan görünməmiş məbləğlər də tez bitib.

"Mövcud məhdudiyyətlər sosial bir təcrid xərci ilə nəticələnsə də, infeksiya səviyyəsinin ən aşağı səviyyəyə enməsindən əvvəl bəzi yerləri çox tez açmağın gələcək infeksiyalara zəmanət verəcəyini və uzun müddətli tibbi və iqtisadi nəticələri pisləşdirəcəyindən qorxuram", deyə Mark Facebookda yazıb.

## Baş nazirə xəbərdarlıq edən həkim virusdan həyatını itirdi

İngiltərənin Baş naziri Boris Conson və Səhiyyə naziri Mat Hankoka qoruyucu vasitələrin yetərsizliyi ilə xəbərdarlıq edən həkim koronavirusdan vəfat edib. SİA xəbər verir ki, İngiltərənin paytaxtı Londonun şərqində Homerton xəstəxanasının məsləhətçi uroloqu, 53 yaşlı Əbdül Mabud Çovdurinin 18 yaşındakı oğlu İntizar Çovduri Baş nazir və Səhiyyə nazirinə bununla bağlı müraciət edib.

Belə ki, koronavirusdan həyatını itirən həkim 18 mart tarixində Boris Consona məktub ünvanlamış və məktubda bildirmişdir: "İş fəaliyyətimizlə bağlı insanlardan təşəkkürlər dolu mesajlar alırıq. Lakin, özümüzü və yaxınlarımızı xüsusi qoruyucu vasitələrlə qorumalıyıq". Əlavə olaraq, uroloq qoruyucu vasitələrin yetərsiz olduğunu da dilə gətirmişdir. Həkimin 18 yaşındakı oğlu isə canlı yayında Baş nazir Boris Conson və Səhiyyə naziri Mat Hankoka müraciət edərək onları atasının qayğılarını kifayət qədər ciddi qəbul etməməklə günahlandırıb: "Atamın qayğılarını ciddi qəbul etmədiyiniz üçün heç peşmansınız?".

## Tramp: "Çin məğlub olmağım üçün əlindən gələni edəcək"



ABŞ prezidenti Donald Tramp Pekin administrasiyasının koronavirusun yayılmasına münasibətini tənqid edərək bildirib ki, Çin noyabrda keçiriləcək seçkilərdə məğlub olmağım üçün əlindən gələni edəcək. Onun hərəkətləri buna əyani sübutdur. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Tramp ABŞ-dakı iqtisadi böhranın seçkini təhlükə altına alacağını iddia edərək, koronavirus böhranının yeganə səbəbkarı kimi Çini hədəf alıb.

"Reuters" xəbər agentliyinə danışan ABŞ prezidenti, Çinin gələcəkdə koronavirusla bağlı dünyaya daha çox məlumat verəcəyinə inandığını bildirib: "Mən Pekin administrasiyasına müxtəlif yollarla cavab verə bilərəm. Hazırda prosesi qiymətləndiririk". Çinin noyabrda ayında ABŞ-da keçiriləcək seçkilərdə qalib gəlməməsi üçün əlindən gələni edəcəyini ifadə edərək Tramp "Pekin Demokrat namizədi Co Baydenin seçilməsini istəyir. Çin ticarətdə etdiyim təzyiqləri azaltmaq üçün əllərindən gələni edəcək. Özlərini günahsız görünmək üçün daim ictimaiyyətlə əlaqələr seçimindən istifadə edirlər", deyib. Çinin ABŞ ilə ticarət razılaşması əldə etmək istədiyini deyən Tramp "Daha çox pul ödəmək üçün razılığa gəldilər. Əvvəlkindən daha çox pul ödəyirlər. ABŞ Covid-19 epidemiyasından əvvəl çox yaxşı gedirdi. İqtisadiyyatımız tarixin ən yaxşısı idi", deyə bildirib.

# Post-karantin dövrünə necə uyğunlaşa bilərik?

***“Mütləq şəkildə stresin idarə olunmasıdır. Stresi idarə etmək üçün insan sevdiyi xobbilərlə məşğul ola bilər, yoqa, meditasiya da burada insanların yardımına çata bilər”.***



Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Nutrisiologiya, Dietologiya və Piylənmənin Profilaktikası Akademiyasının həkim təlimçisi, dietoloq Əsmər Kərimli insanların post-karantin dövrünə necə uyğunlaşması lazım olduğundan danışarkən deyib. Dietoloq bildirib ki, yaxınlaşan post-karantin dövrünü rahat keçirmək üçün bizim karantin dövründə əməl etməli olduğumuz qaydalar var: “Bunlardan birincisi rejimlərimizdir. İnsanların karantin dövründə ən çox pozduğu tejimləridir. Bu istər yuxu olsun, istərsə qidalanma olsun. Unutmayaq ki, bizi viruslara qarşı qoruyan immunitetimizdir. Bu isə birbaşa sadaladığımız faktorlarla əlaqədardır.

### İlk əvvəl qidalanma necə olmalıdır?

Təəssüf ki, son vaxtlar biz görürük ki, insanlar marketlərdə səbətlərinə daha çox rəf ömrü uzun qidalar: bunlar unlu, makaron məmulatları, şəkərli qidalardır hansı ki, tərkibində duz və şəkər oranı, trans yağ dediyimiz zərərli yağların oranı yüksək olan qidalarla doldurmaqdadır. Qətiyyən, bunu etmək olmaz, əksinə karantin dövründə ümumiyyətlə adi həyatımızda da təzə qidalara üstünlük verməliyik. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi tövsiyyələrə əsasən də gündə 5 porsiya hər porsiya 400 qram olmaqla insan tərəvəz və meyvə qəbul etməlidir. Yağlarımız isə sağlam, soyuq sıxım yağlardan, çərəzlərdən olmalıdır. Həm də rəngarəng qidalanmalıyıq”.

Onun sözlərinə görə, ikinci mühüm faktorlardan biri fiziki aktivlikdir və karantin dövründə insanların ən çox əziyyət çəkdiyi cəhət fiziki aktivliyimizin qat-qat azalmasıdır: “Gün ərzində ev şəraitində 20 dəqiqədən başlayaraq aktivliklə məşğul olmalıyıq. Hazırda həm milli televiziya kanallarımızda, həm də internetdə istənilən intensivlikdə idman hərəkətlərini izləyə bilərik. Bu sizin hər hansı bir sevdiyiniz rəqs də ola bilər”.

Əsmər Kərimli vurğulayıb ki, üçüncü faktorlardan biri yuxu rejimidir ki, buna mütləq əməl edilməlidir: “Karantin dövründə insanların çox daha gec saatlarda yatdığı və gec saatlarda da yuxudan oyandığını görürük. Bu isə həm metabolizmamıza təsir edir, həm də karantindən sonrakı dövrdə bizim həyat rejimimizə uyğunlaşmağımızda çətinliklər yaradacaq.

### Mütləq şəkildə stresi idarə etməliyik...

Digər bir məsələ isə mütləq şəkildə stresin idarə olunmasıdır. Stresi idarə etmək üçün insan sevdiyi xobbilərlə məşğul ola bilər, yoqa, meditasiya da burada insanların yardımına çata bilər. Eyni zamanda mütləq şəkildə hava almağa çalışın. Bu bizim eyvanda aldığımız hava belə ola bilər. Dərin nəfəs alıb verməklə təmiz hava ilə özümüzü təmin etməliyik”.

Dietoloq qeyd edib ki, şəkərli, duzlu qidaları minimuma endirməliyik, lakin, bu o demək deyil ki, ümumiyyətlə karantin dövründə kalorisi kəskin azaldılmış və yaxud ağır pəhrizlərə müraciət etməliyik: “Bu tövsiyyə olunmur. Əksinə ratsionu daha rəngarəng bişirilmiş qidalarla artırmaq lazımdır. Bütün bunlara əməl olunarsa karantin dövründən post-karantin dövrünə uyğunlaşma periodu daha sağlam və daha rahat olacaq”.

***Nigar Məmmədova***

# “Koronavirus təhlükəsinin azalması onun yox olması demək deyil”

***“Koronavirus dünyanı bürüyən bir fəlakətdir. Virusa qarşı mübarizədə hansı tədbirlər görülməlidirsə, Azərbaycan dövləti tərəfindən bu istiqamətdə bütün lazımi addımlar atıldı. Bu gün ölkəmizdə pandemiya ilə mübarizədə əldə olunan uğurlar məhz indiyədək görülən işlərin nəticəsidir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.***




O bildirib ki, bu gün koronavirus pandemiyası ilə bağlı müəyyən zəifləmələr varsa, buna hər kəs çox sevinir: “ Azərbaycan da əlbəttə ki bu sevincə qoşulur. Amma təhlükənin azalması onun tamamilə yox olması demək deyil. İnsanlar bundan sonra da məsuliyyətli olmalı, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən tətbiq olunan qayda və tövsiyələrə əməl etməlidirlər”.

Deputat söyləyib ki, dünya ölkələrində olduğu kimi Azəbaycanda da karantin rejimi ilə bağlı müəyyən məhdudiyyətlər aradan qaldırılıb: “Lakin pandemiya bitməyib. Normal həyatımıza qayıtmaq üçün hələ də profilaktik tədbirlərə, zəruri sanitar-gigiyenik tədbirlərə əməl etməliyik. İşimizi, məktəbləri, baxçaları, metronun eləcə də digərlərinin fəaliyyətini yalnız xəstəliyin aradan qalxması müqabilində bərpa edə bilərik”.

A.İsgəndərov qeyd edib ki, Azərbaycanda pandemiya ilə mübarizə istiqamətində qəbul edilən bütün qərarlar insanların sağlamlığının qorunması naminədir: “Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ən qiymətli kapital insandır. Biz insanlar dövlətimizin pandemiya ilə bağlı uğurlu mübarizə tədbirlərini sona çatdırmalıyıq. Əgər biz karantin rejiminin yumşaldılması ilə əlaqədar təhlükənin sovuşduğu əhval-ruhiyyəsinə daxil olsaq, o zaman əldə olunan uğurları kölgə altına sala bilərik. Əgər uğurlarımızın sona qədər olmasını, pandemiyadan uğurla çıxan ölkələrin siyahısında qalmaq istəyiriksə tətbiq olunan qaydalara ciddi əməl etməliyik”.

Yaşı 65-dən artıq olan vətəndaşların bu məsələlərə daha çox diqqət etməsinin vacibliyini vurğulayan deputat deyib ki, bu yaş kateqoriyasına aid olan şəxslərin qaydalara əməl etməsi onların qorunması, daha çox yaşaması üçündür: “Yaşlı insanlar daha çox özünütəcrid etməli “Evdə qal”malıdırlar. Tezliklə normal həyatımıza qayıtmaq üçün hər birimizin bu şüara əməl etməsi vacib və zəruridir”.

***Nailə Məhərrəmova***

# “Ermənistanın tez-tez mövqe dəyişməsi çarəsizliyin əlamətləridir”

***“Ermənistanın Rusiya XİN başçısı Sergey Lavrovun səsləndirdiyi fikirlərə sərt bəyanatı işğalçı ölkənin siyasi baxımından küncə sıxışdırıldığını açıq şəkildə göstərir”. Bu fikirləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Tamerlan Vahabov deyib***




O bildirib ki, Ermənistanın rəhbərliyi vəziyyətin onların xeyrinə olmadığını gördüyü üçün də son dövlər populist çıxışlar etməyə başlayıb: “ATƏT-in həmsədr ölkələrindən biri olan Rusiyanın XİN başçısının bəyan etdiyi mövqe müvafiq sənədlərdə əksini tapıb. Lakin Ermənistanın XİN başçısının bəyanata qarşı verdiyi reaksiya isə peşkarlıqdan tamamilə uzaqdır. Əgər hər hansı bir ölkə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində iştirak edir, baş verənlərdən xəbəri varsa o zaman nəyə görə sərt reaksiya verməlidir? Bu bir daha Ermənistanın böhran vəziyyətində olduğunu sübut edir”.

T. Vahabov söyləyib ki, Ermənistan rəsmi nümayəndələri tərəfindən səslənən təxribat xarakterli bəyanatlara baxmayaraq Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində səylərini davam etməlidir: “Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik baxımından Ermənistandan üstün olduğunu hər kəs bilir. Azərbaycan üçün müvafiq alətlərdən istifadə etməklə Ermənistanı istədiyi istiqamətə yönəltmək imkanları yaranıb. Hesab edirəm ki, ölkəmiz bu imkanlardan bəhrələnməli və münaqişəsinin tənzimlənməsi istiqamətindəki kursunu davam etməlidir”.

Ekspert söyləyib ki, Azərbaycanın münaqişənin həlli ilə bağlı əldə etdiyi diplomatik uğurlar ölkəmizin indiyədək həyata keçirdiyi siyasətin düzgün olduğunu göstərir: “Cənab Prezidentin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müəyyən etdiyi kurs tam doğrudur. Bunu beynəlxalq aləm də təsdiq edir. O ki qaldı Ermənistanın tez-tez mövqe dəyişməsinə, bu, onların çarəsizliyinin əlamətləridir”.



# Ümidləri ölmüş müxaliflər

**RƏFİQƏ**

***Deyir uzunqulaq bir dəfə palçığa batanda, ikinci dəfə o yolu getmir. Ancaq dünya dövlətlərinin koronavirusla mübarizə apardığı bir zamapnda bu bədbəxt “Milli Şura” deyilən ölü qurumun ümidi ölmüşləri indi də bu virusdan pul qazanmaq istəyirlər. Yenə də gündüzlərini gecələrə döndərən satın və cinayətkar Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...və... bu kimi satqın, mənəviyyatsız və özündən müştəbehlər müxtəlif sosial şəbəkələrdən düşmürlər. Abırsızlıq buna deyilir. Doğrudur, xalq onları çoxdan üfunət iyi verən zibilliklərə atıb, üstündən də bir təpik vurub. Ona görə də belələrinin danışdıqları da kimsəyə maraqlı deyil. Necə deyərlər: milçək bir şey deyil, könül bulandırır...***

Ancaq xalq belə bir ağır məqamda bir daha əmin oldu ki, öz seçimində əsla yanılmayıb. Çünki dünyaya gəldikləri gündən satqın və riyakarlıqla bu günə kimi xalqa düşmən olan Əli Kərimli, Cəmil Həsənli kimilər, bütün mənəviyyatlarını, hətta ailəsini belə satan Sevinc Osmanqızı kimi rəzillər bu epdemiyanın baş alıb getdiyi bir məqamda da yenə də “bir olmaları” və “çıxış yolu mitinq etməkdir” çağırışlar etmələri, ancaq və ancaq xalqda nifrət doğurur, heysinə toxunur. Artıq xalq bu gün onların cəzalandırılması tələbi ilə çıxış edir. Çünki xalq 27 ildən çoxdur görür ki, istər ölkə daxilində, istərsə də xaricdə oturub məlum qüvvələr tərəfindən bəslənən və ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaq üçün istifadə olunan ünsürlər üçün xalq, millət, dövlətçilik faktoru heç vaxt önəm daşımayıb. Onlara lazım olan erməni lobbisi və həmin lobbinin pulları hesabına fəaliyyət göstərən xarici qurumlara yalmanıb, dollar və avro qazanmaqdır. Və Əli Kərimli, Qənimət Zahid, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...və... kimi ünsürlərin hər gün Sevinc Osmanqızının canlı efirində nə qədər də çənə vursalar da, böhtanlar yağdırsalar da, necə deyərlər: boş çanağın dolu çanağa vurmasına bənzəyir. Və bu siyasi quldurlar, Vətən xainləri bilməlidirlər ki, xalqın adından danışmağa onların haqqı da yoxdur. Çünki Azərbaycanda vətəndaş amili daim öndə olub və güclü dövlətimiz, güclü hakimiyyətimiz dünya liderlərinin həsəd apardığı LİDERİMİZ var! Bunu bütün inkişaf etmiş dövlət rəhbərləri də görür, xalqımız da ki, son 17 il hakimiyyəti dövründə və bütün çətin məqamlarda olduğu kimi, bu gün də Prezident xalqının dayağındadır, yanındadır! Məhz Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində gördüyü işlər, imzaladığı fərman və sərəncamlar və bunların icrası ölkəmizdə uzun illərdir reallaşdırılan inkişaf konsepsiyasının davamı, tərkib hissəsidir. Belə olan halda görəsən özlərini “müxalif qüvvə” adlandıranlar nə istəyir? Hələ də anlamırlar ki, bu gün Azərbaycan bir çox ölkələr üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir.

Və bugün küt təfəkkürlü dağıdıcı düşərgə quldurları “evdə qall” kampaniyasına görə minnətdarlıq etmək əvəzinə “mitinq, mitinq” çağırışı etmələri ilə bir daha ölmüş ümüdlərinin həyata keçirləcəyinə inanırlar. Bu mümkün olmayacaq. Çünki hansı böhtanı, şəri, yalanı ixrac etmək istəmələrindən asılı olmayaraq, bu gün Azərbaycan dövləti dünya koronavirus pandemiyasında çalxalandığı bir zamanda iqtisadi-siyasi, sosial cəhətdən möhkəmlənir, inkişaf edir. Və çox az zaman kəsiyində bu quldur və satqınların canlarında olan satqınlıq virusu onları əbədi olaraq layiq oldduqları yerə aparacaq.

# Qətiyyətin sonu qələbədir!

***Az qala iki aydır ki, bütün dünya, o cümlədən dünyanın bir parçası olan Azərbaycan gözəgörünməz bir düşmənlə savaşdadı. İnkişaf etmiş əksər ölkələrdən fərqli olaraq Azərbaycan dövlətinin vaxtında problemin ciddiliyinin fərqinə varması, ən ciddi və düşünülmüş addımlar atması xalqımızı bu pondemiya bəlasından minimum itkilərlə uzaqlaşdırmağa, artıq demək olar ki, imkan yaratdı.***

Bu fakt indiki Azərbaycan iqtidarının sözdə deyil, əməldə xalqın, vətəndaşların yanında olduğunu, hər bir vətəndaşın taleyinə nə qədər məsuliyyət hissi ilə yanaşdığını bir daha ortaya qoymuş oldu. Təkcə pondemiya dövründəmi gördük bu qətiyyəti? Təbii ki, cavab birmənalıdır: YOX!. Qaçqın və məcburi köçkünlərin, vətən əlillərinin, şəhid ailələrinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin atdığı addımlar, cəmiyyətin həssas təbəqələrinin sosial şəraitinin durmadan yaxşılaşdırılması, həm paytaxtın, həm də regionların iyirmi il ərzində görkəminin tamamən dəyişməsi, əhalinin bütün infrastrutur ehtiyaclarının təmin edilməsinə yönəlik görülən işlər, ən bağlıcası isə, erməni lobbisinin təsiri altında olan dünya güclərinin hər cür təzyiqlərinə baxmayaraq Dağlıq Qarabağ məsələsinin həllində nümayiş etdirilən birmənalı mövqe...



Bütün bunlar hakimiyyətin xalq üçün, onun problemlərinin həlli üçün çalışdığını, həm də qətiyyətlə çalışdığını göstərir. Son Prezident seçkilərindən sonra vüsət alan firavan və şəffaf Azərbaycan naminə tədbirlər isə, ölkə başçısının bütün dövrlərdə olduğu kimi bu dəfə də vədinə sadiqliyinin ən parlaq göstəricisidir. Aparılan kadr və idarəetmə islahatları saflaşmaya doğru iri addımlarla irəliləmənin bariz göstəricisidir və bunun nəticəsini bütün cəmiyyət özünün məişət şəraitinin yaxşılaşması ilə birbaşa hiss edir. Hesab edurəm ki, cəmi iki ildə ölkəmizdə Prezidentin rəhbərliyi altında görülən bu işləri hakimiyyətdaxili inqilab adlandırmaq üçün bütün əsaslar var. Yazıma koronovirus pondemiyası ilə başlamağım təsadüf deyil. Çoxlarında belə bir düşüncə formalaşmağa başlamışdı ki, artıq bu bəşəri bəla ölkə rəhbərliyini saflaşma uğrunda mübarizədən çəkindirəcək və kadrlara olan tələbkarlıq səngiyəcək.

Lakin bir gün öncə Biləsuvar rayonunda Dövlət Təhlükəsizlik Xidməti əməkdaşlarının keçirdiyi məlum əməliyyat, dövlətin bu məsələdə də nə qədər qətiyyətli olduğunu bir daha ortaya qoydu. Ölkə başçısı bütün çıxışlarında məmurlara mesajlar göndərir, onlara özlərini dəyişmək, yalnız xalq üçün fəaliyyət göstərmək çağırışları edir. Hətta koronovirusla bağlı ən gərgin məqamlarda belə Prezident bu mövzuya toxunmadan keçməmiş, hər kəsi yeni təfəkkürlə işləməyə dəvət etmişdir. Nə yazıqlar ki, əli rüşvətə, korrupsiyaya öyrənmiş, bunu özünün yaşam tərzinə çevirmiş bəzi məmurlar bütün bu mesaj və çağırışlardan nəticə çıxarmaq istəmir və əvvəlki qayda ilə işləməyə cəhd edirlər. Məhz pondemiyanın hələ də səngimədiyi indiki məqamda Biləsuvarda bu əməliyyatın uğurla keçirilməsi, ölkə rəhbərliyinin şəffaf Azərbaycan yaratmaq uğrundakı inqilabi mübarizəsinin nə qədər qətiyyətli olduğunun növbəti təstiqidir. Məmurlara növbəti dəfə ən kəskin şəkildə mesaj verildi ki, nə pondemiya, nə bəzi xarici qüvvələrin təzyiqi,nə də mövqeyindən qovulmuş məmurlardan bəzilərinin revanş istəyi ilə cəmiyyətə saxta məlumatlar ötürmələri ölkə rəhbərliyini başlanmış və müvəffəqiyyətlə davam edən korrupsiyasız Azərbaycan uğrunda mübarizəsindən döndərə bilməyəcək.

Elə bu məqamda aparılan mübarizənin daha keyfiyyətlə irəliləməsində vətəndaşların, sadə insanların nə etməli olduğu haqda da bir-iki kəlmə deməyi vacib hesab edirəm. Artıq sirr deyil ki, son iki ildə tutduqları vəzifədən sui-istifadə edən, vəzifəsindən xalqa xidmət eləmək əvəzinə, özünə və yaxınlarına, onların uzaq gələcəyinə xidmət edən çoxsaylı məmurlar postlarından kənarlaşdırılıb. Bəziləri həbs edilməklə əməllərinin cəzasını çəkir, bir hissəsi ölkə başçısının humanizmi ilə sərbəst buraxılıb. Əlbəttə, bu eks-məmurların əksəriyyəti baş verənləri təbii qarşılayır, vəzifənin əbədi olmaması fəlsəfəsini birmənalı qəbul edir və yeni düşüncəli gənclərin yüksək dövlət vəzifələrinə təyin edilmələrini müsbət qarşılayırlar.

Lakin vəzifəni özünün ata malı hsab edən cılız düşüncəli elə eks-məmurlar var ki, özləri də, onun vəzifəsindən faydalanıb milyonlara sahib olan yaxınları da gecə-gündüz, özünü müxalifət adlandıran bəzi siyasi biznesmenlərin qapıları ağzındadırlar. Məqsəd bu islahatların durdurulmasına nail olmaq üçün bütün vasitələrlə ölkə rəhbərliyinə təzyiqi artırmaqdan ibarətdir. Hətta rüşvətə, korrupsiyaya normal həyat tərzi kimi yanaşan elə məmurlar var ki, hələ də postlarında oturmalarına rəğmən bu küləyin onlara da çatacağını bildiklərindən, onlar da gizli qaydada həmin eks-mmurlara dəstək verməyə çalışırlar. Bunun üçün sadə insanları cüzi məbləğlərlə ələ alıb, həqiqətdən uzaq çıxışlarını lentə alıb, sosial şəbəkələrdə yayımlayırlar ki, bu da dolayısı ilə sadə insanların özlərinin özlərinə vurduğu sarsıdıcı zərbədir. Bu mövzunun genişliyini və gələcəkdə bununla bağlı ayrıca yazı istəyimin olduğunu nəzərə alaraq, hər bir ölkə vətəndaşının Prezidentin rəhbərliyi ilə həyata keçirilən inqilabi xarakterli qətiyyətli islahatlara eyni qətiyyətlə dəstək verməsi və bu islahatların uğurla başa çatmasının hər birimizin gələcəyi üçün həyati əhəmiyyət daşıdığını xatırlatmaqla yazıya son verirəm...

***Təhmasib Novruzov***

## “Ermənistan öz həyasızlığını davam etdirir”

“Azərbaycan tərəfi onsuz da danışıqlar prosesinə sadiqdir. Lakin, Er-
mənistanın beynəlxalq hüquq və normalara ümumiyyətlə hörmətlə
yanaşdığını düşünmürəm”. Bu sözləri SİA-ya açıqlamasında hərbi
məsələlər üzrə ekspert, Azərbaycanın ehtiyatda olan polkovnik-leytenantı Üzeyir
Cəfərov Azərbaycan və Ermənistanın XİN rəhbərlərinin növbəti görüşündə hansı
məsələlərin müzakirə oluna biləcəyindən və Ermənistanın hazırkı dövrdə təxribat-
larını davam etdirərkən Azərbaycanın hansı mövqedə durduğundan danışarkən
deyib.

Onun sözlərinə görə, Ermənistanın Xarici İşlər nazirinin məlum açıqlaması bir
çox azərbaycanlını, o cümlədən Üzeyir Cəfərovun özünü də hiddətləndirib və
ATƏT-in Minsk qrupunun həmsədrlərinin danışıqlarla bağlı yekun bəyanatlarında
bir kəlmə də olsun Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyanın danı-
şıqlar prosesinə zərbə vuracaq açıqlamasına münasibət bildirilməyib: “Ermənistan
danışıqlar prosesini daha çox uzatmağa cəhd edir. Bundan əvvəl də Ermənistanın
XİN başçıları və siyasi rəhbərləri müxtəlif illərdə, müxtəlif bəyanatlar səsləndiriblər
və indi də bu fikirlərini səsləndirməyə davam edirlər. Düşünürəm ki, biz danışıqlar
prosesində bir qədər möhkən və qətiyyətli olmalıyıq. Azərbaycanın Xarici İşlər na-
ziri Elmar Məmmədyarov Azərbaycan tərəfinin müəyyən fikirlər səsləndirdiyini və
tələblər irəli sürdüyünü bildirir, təbii ki, bunlar yerində atılan addımlardır. Lakin, Er-
mənistanın axırıncı hərəkətindən sonra Azərbaycan vətəndaşı və Qarabağ müha-
ribəsi iştirakçısı kimi Azərbaycanın danışıqlar prosesindən çıxmasını istəyərdim.
Bu zaman həmsədrlərdə sual yaranacaq: Axı, niyə Azərbaycan danışıqlardan çıxır?
Buna cavab olaraq demək istəyərdim: Axı, biz kiminlə söhbət etməliyik, qeyri-cid-
di insanlarla? Mən, Ermənistan tərəfini nəzərdə tuturam. Onlar danışıqlar prosesin-
dən sonra öz həyasızlıqlarına davam edirlər”.

Ekspert Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlardan da danışaraq bil-
dirib ki, artıq Ermənistan tərəfi avtomat və pulemyotlardan deyil, mina atanlardan
istifadə edərək iki gündür ki, cəbhədə gərginlik yaradır: “Ermənistan ayrı-ayrı isti-
qamətlərdə atəşkəsi pozmağa davam edir. Azərbaycan tərəfi onsuz da danışıqlar
prosesinə sadiqdir. Lakin, Ermənistan öz həyasızlığını davam etdirir. Ermənista-
nın beynəlxalq hüquq və normalara ümumiyyətlə hörmətlə yanaşdığını düşünmü-
rəm. Mən, danışıqlar prosesində Ermənistanla bir qədər sərt danışmağın tərəfda-
rıyam. Başa düşürəm ki, bu diplomatiyaya bir qədər ziddir, lakin, bizim də səbri-
mizin bir həddi var. Ermənistan mülkü vətəndaşlarımızı atəşə tutur. Ərazilərimiz-
də özbaşınalıq edir. Hərbiçilərimizə qarşı açıq təxribatlar həyata keçirir. Azərbay-
can bütün bunların qarşısını almaq üçün beynəlxalq qurumların yaxasından möh-
kəm yapışmalıdır ki, özbaşına və işğalçı ölkəni yerini göstərsin”.

***Nigar Məmmədova***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Mitinq azarı: Müxalifət onlayndan çıxa bilmir

***Ənənəvi müxalifətin mütəmadi olaraq siyasi-ictimai rəydə öz aktuallığını itirməsi, ümumiyyətlə heç bir maraq doğurmaması, eləcə də yersiz, mənasız fikirləri ilə gündəmdə qalmaq cəhdləri növbəti şou xarakterli fikirləri ilə yadda qaldı. Məsələ ondadır ki, bu dəfə AXP sədri Pənah Hüseyn sosial şəbəkə vasitəsi ilə mitinq keçirmək barədə guya “ideya” irəli sürdü və hətta “dəstək” də aldı. Ancaq gülünc məsələ ondadır ki, heç vaxt öz ideyaları ilə ictimai rəyə təsir edə bilməyən ənənəvi müxalifət təmsilçiləri bu dəfə də başqa ölkədə (Rusiyada) baş verən siyasi olayı dərhal özünküləşdirib tətbiq edəcəklərini anonsladılar. Hətta bu fikrə ADP, Ağ Partiya, AMİP, BAP kimi partiyalar da dəstək göstərib və s.***

### Çullarını sudan quru çıxarmaq üçün ən “ideal” variantları məhz sosial şəbəkələrdir

Söz yox ki, ciddi dayağı, kütləvi elektoratı, sosial bazası olmayan müxalifət partiyalarının çullarını sudan quru çıxarmaq üçün ən “ideal” variantları məhz sosial şəbəkələrdir. Yalnız şəbəkələr üzərindən varlıqlarını sübut etməyə çalışan “liderlərin” zatən başqa yolları da qalmayıb...

Amma gəlin görək, hətta onlayn mitinq olsa belə, kimlərdənsə dəstək alacaqlarmı? Əlbəttə ki, bu mümkün olmayacaq. Uzağı öz yaxın ətrafları və xahiş-minnətlə rəy yazan trollar...

### İtən, yox olan cəmiyyətdən dəstək ala bilməyən müxalifətin növbəti oyunbazlığı, hətta sirk tamaşasıdır

Başqa tərəfdən, bu gün dünyanı narahat edən əsas məsələ koronavirusla mübarizə və insanların sosial vəziyyətlərinin diqqətə alınması, sağlamlıqlarının mühafizəsidir ki, bütün bunları dövlət tətbiq edir. Ümumiyyətlə, Azərbaycan azsaylı ölkələrdəndir ki, bu gün öz vətəndaşlarını hərtərəfli qayğıyla təmin etməklə yanaşı, mövcud vəziyyətdə bütün imkanlarını maksimum şəkildə səfərbər edir. Yəni qısa desək, mitinqlərin keçirlməsinə zərurət və tələb, sosial sifariş də yoxdur. Onda belə bir nəticəyə gəlmək olar ki, bu sadəcə itən, yox olan cəmiyyətdən dəstək ala bilməyən müxalifətin növbəti oyunbazlığı, hətta sirk tamaşasıdır, özü də onlayn rejimdə. Daha dəqiq deəsk, onlayn mitinqin keçirilməsi iddiası düşərgənin hələ də mövcud xəstəlikdən sağalmamasının göstəricisidir. Bu xəstəliyin adı isə mitinq azarıdır...

# Erməni vitse-spiker müxalifətçiyə kəllə atdı



Ermənistan parlamentinin vitse-spikeri, Paşinyan hökumətinin söz sahiblərindən biri Alen Simonyan müxalifətyönlü “Adekvad” təşkilatının təsisçisi Artur Danielyanın burnuna nəyə görə baş zərbəsi endirməsinin təfərrüatını açıqlayıb. SİA xəbər verir ki, onun fikirlərini panorama.am saytı yayıb. Simonyan Facebook sosial şəbəkəsində canlı yayıma çıxarkən bildirib ki, Danielyan onun salamına senzuradan kənar söyüşlə şəkildə cavab verib. O, həmçinin deyib ki, Danielyan müxalifətə keçməmişdən öncə “Vətəndaş sazişi” partiyasında təmsil olunub və onu partiyadan tanıyır. Onlar parkda gəzinti edərkən rastlaşıblar. Simonyana görə, Dabielyan ona uzun və anlaşıla bilinməyən baxışlarla baxıb.

“Mən cavabında dedim: salam, Artur. Cavabında isə növbəti ifadəni eşidib: “salam it oğlu”. Mən üzr istəyirəm və hər şeyi danışmaq istəmirəm. Ona yaxınlaşaraq dedim ki, mən də həmin ifadəni və münasibəti bəsləyirəm və başımla burnuna zərbə endirdim”, Ermənistan parlamentnin vitse-spikeri deyib. “Mən onu da anlayıram ki, dövlətin səlahiyyətli şəxsiyəm, ancaq bu o demək deyil ki, kimsə adi salamlamaya belə bir reaksiya versin”, Simonyan bildirib və sonda qeyd edib ki, lazımi məsuliyyəti daşımağa da hazırdır.

TƏRS BAXIŞ

# Əli Kərimli "nəbzi" yoxladı və...

***AXCP sədri Əli Kərimlinin yaxın ətrafından hesab edilən, partiyanın gənclər birliyinin sədri Emil Səlimin facebook-da mədh etməsi hətta cəbhəçilərin də qəzəbinə tuş gəlib. Belə ki, açıq-aşkar yaltaqlığı və mədhiyyə əks etdirən həmin status həm də onu sübut edib ki, o, "liderim" dediyi Kərimlini Məhəmməd Əmin Rəsulzadədən və AXCP-nin yaradıcısı Əbülfəz Elçibəydən üstün tutub. Bununla da Ə.Kərimlini "göylərə qaldırıb". Maraqlısı da budur ki, AXCP sədri həmin statusa, yəni ona məddahıq edən edilən fikirlərə müdaxilə etməyib, sildirməyib. Hətta həmin status saatlarla (!) səhifədə qalıb.***




Lakin məsələnin daha bir ilginc tərəfi budur ki, məhz saatlar sonra bəlli status silinib və sonradan E.Səlim iddia etməyə başlayıb ki, guya onun profili "oğurlanıb", baş verənlər ona və Ə.Kərimliyə qarşı "təxribatdır" və s.

Əksər cəbhəçilər bu statusun altından E.Səlimə ittihamlı cavablar yazmaqla, kəskin iradlarını bildiriblər

Ancaq sağlam düşüncəli ictimai rəy cəbhəçilərin bu cür hoqqalarını yaxşı bilir. Yəni belə bir qənaətə gəlmək olar ki, əslində AXCP sədrinin özündənmüştəbehliyi, təkəbbürçülüyü çoxdandır ki, onun sağalmaz xəstəliyinə çevrilib və tərəfdarları arasında itirilən nüfuzunu geri qaytara bilməyəcəyini anladığı üçün E.Səlimə belə bir statusu yazdırıb. Daha doğrusu, "nəbzi" yoxlamağa çalışıb. Amma istədiyi baş tutmayıb. Əksər cəbhəçilər bu statusun altından E.Səlimə ittihamlı cavablar yazmaqla, kəskin iradlarını bildiriblər. Bu da öz yerində. Fəqət faktlardan biri də budur ki, Ə.Kərimli nəinki M.Ə.Rəsulzadəni qəbul etmir, o cümlədən Elçibəyə qarşı antipatiya hissləri bu gün də mövcuddur. Alınmadı...

Biz, elə də uzağa getməyərək Kərimlinin ona qarşı nə qədər utancverici, təhqirli fikirlər irəli sürməsi faktlarını yenidən sadalamağa da ehtiyac duymuruq. Ən azından, internetin axtarış mənbələrində "Yurd" qruplaşmasının rəhbəri kimi hansı oyunlardan çıxması məlumatları kifayət qədərdir. Hələ mərhum Elçibəyin zəhərlənməsi ətrafında irəli sürülən iddiaları da buraya əlavə etsək...

Bütün bunlardan sonra isə, AXCP sədrinin partiyasının gənclər birliyinin sədrinin onu mədh etməsi statusunu nəyə görə dərhal sildirməməsi aydın olur. Aydın olur ki, o bu vasitə ilə özünü nəinki AXCP-nin, ümumilikdə müxalifətin "anası" kimi sırımaq planını tətbiq etməyi düşünür. Amma göründüyü kimi, alınmadı. Hər halda, bir qədər yaşlı insanlar bu ünsürün hansı "yuvanın quşu" olduğunu yaxşı bilir və xatırlayırlar.

*Rövşən RƏSULOV*

## Əli Orucov: "Müxalifət düşərgəsi də yekcins deyil"



***Cəmiyyətdə birliyin və bərabərliyin daha da möhkəmlənməsi istiqamətində iqtidar geniş və əhatəli addımlar atmaqdadır. Artıq partiyalar arasında canlı dialoqun qurulması üçün siyasi partiya sədrləri ilə görüşlər keçirilir. Artıq bu günə qədər 50-yə qədər siyasi partiya rəhbəri ilə görüşlər keçirilib. Ancaq bu dəfə də, AXCP-də və "Milli Şura" milli birliyin pozulmasına xidmət edən təxribatları ilə siyasi dialoq prosesinin uğurlarına kölgə salmağa çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin, Cəmil Həsənlinin və digərlərinin siyasi dialoqa qatılmamalarının səbəbini onların xaricdən təlimat almaları ilə əlaqələndiriblər.***

AMİP funksioneri Əli Orucov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda iqtidar-müxalifət münasibətlərinin normallaşdırılması və sivil məcraya yönləndirilməsi hamının istək və arzusudur: "Nəzərə almaq lazımdır ki, siyasi müxalifət partiyaları siyasi sistemin tərkib hissələrindən biri kimi demokratik ölkələrdə vacib institutlardandır. Müxalifət düşərgəsi də yekcins deyil. Onların arasında da müxtəlif maraqlı dairələrə işləyən qüvvələr var Yeni müxalifət fərqlidir müxtəlif spektrləri və qüvvələri əhatə edir. Ona görə də maraqlar da, yanaşmalar da fərqli ola bilər. İqtidarın son dönəmlər atdığı addımlar təqdirəlayiqdir. Lakin bunlar kifayət etmir. Çünki illərlə yığılıb qalmı. problemləri bir neçə aya həll etmək, yaxud da hansısa addımlarla çözmək mümkün deyil. Əsas odur ki, ortada siyasi iradə olsun. Partiyaların inkişafına imkanlar açılsın, o cümlədən müxalifət üçün elektron KİV-lər və maliyyə resurusrları əlçatan olsun".

Ə.Orucovun sözlərinə görə, kimlərin nə düşünməsindən asılı olmayaraq hakimiyyət ölkədə birliyin və bərabərliyin daha da möhkəmlənməsi istiqamətində əhəmiyyətli addımlar atmaqdadır: "Bu davam edəcəksə hər şeyə qara eynəkdə baxan siyasi qüvvələr tədricən öz dəstəyini cəmiyyətdə tam itirəcəklər və məcbur olacaqlar ki yürütdükləri siyasi kurslarına dəyişikliklər etsinlər".

*Gülyana*

## Bakı sakininin "Mercedes" markalı avtomobili qaçırılıb

Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini V.İsmayılov aprelin 29-da A.M.Cümə küçəsindən "Mercedes" markalı avtomobilinin qaçırılmasını bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini V.Cəfərov təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobillə birgə polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Əli Kərimli avantürist və satqındır

***Bu bir real faktdır ki, müxalifət düşərgəsində təmsil olunan partiya funksionerlərinin əsas məqsədləri ancaq Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaqdır ki, buna da nail ola bilmirlər. Müxalifətçi partiya sədri adı altında maskalanan Kərimli və yaxın ətrafı qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməkdir.***



Nə əldə edib, indi də Belə ki, ölkədə keçirilən hər seçkiərəfəsi "boykot" etmək çağırışlar etməsi avantürist və satqın Ə.Kərimli xəstəliyidir. Və bu günə kimi etdiyi bu çağırışları ilə nə əldə edib?. Soruşmaq istərdik ki, onları özlərindən başqa eşidən varmı? Bu barədə düşünüblərmi ki, 26 il müddətində dəfələrlə seçkiləri və referendumları "boykot" etmələrinə rəğmən, nə əldə ediblər? Necə deyərlər, özlərini daha pis duruma sürükləyiblər. Əlbəttə ki, indi xarici qüvvələrin Bakıdakı təmsilçisi Ə.Kərimli kimi avantürist və satqının bu barədə düşünməsi, nəticə çıxarması ona sərf də etmir. Ona sərf edən budur ki, dövlət öz təməllərini möhkəmləndirməkdən ötrü xalqın marağına cavab verən qanun layihələri hazırlasın, bunlar da həmin layihələr ətrafında varlığını sübut etməyə çalışsın.

Ancaq əbəs yerə özünü yorur. Çünki Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirməyə cəhd etdikləri informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür.

Ə.Kərimli həmişə olduğu kimi, bu gün də daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürür. Elə bu günlərdə neftin qiymətinin aşağı düşməsi ilə bağlı sosial şəbəkələrdə bildirir ki, "Azərbaycan iqtisadi çətinliklər ərəfəsindədir". Bax, budur Ə.Kərimlinin əsl siması - uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə, və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə satqınçılığını nümayiş etdirir. Çünki Ə.Kərimli həmişə anti-Azərbaycan qüvvələrin dəyirmanına su töküb.

Siyavuş Novruzov: "Əli Kərimli ilana ağı verən kərtənkələdir"

YAP İcra katibinin müavini , Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov dövlətin pandemiyaya qarşı apardığı mübarizəyə müxalifətin hay-həşir salmasının onların satqın və xəyanət yolu tutması ilə əlaqələndirib: "Xaricdə oturub Azərbaycan əleyhinə iş aparan adamlar var. Biz konkret olaraq adlar deməliyik, onları ifşa etməliyik. ABŞ-da oturan Sevinc Osmanqızı, Avropada oturan Qənimət Zahit Avropada deyir ki, Azərbaycanda koronavirusa qarşı mübarizə aparılmır. Bəs ölkəmizdə bu qədər işlər görülür, karantin rejimi tətbiq olunur. Bu işləri kim görür?".

O qeyd edib ki, həmin insanlar özləri xaricdə evdə oturub çölə çıxa bilmirlər, hüquq-mühafizə orqanlarının tələblərinə ikiqat tabe olurlar: "Ancaq burda Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...bu kitmi satqın və xainlər, xalqa düşmən olanlar deyirlər ki, çölə çıxın. Bunlar istəyirlər ki, Azərbaycanda vəziyyət pis olsun və onlar sevinsinlər. Deyir "ilana ağı verən kərtənkələrdir". Bunlara da ağlı verən Ə.Kərimlidir. Utanmasalar deyərlər ki, koronavirusu Azərbaycan yaradıb. Biz bunları ifşa etməliyik ki, bunlar hardan maliyyələşdirilir. Bunlar iqtidara müxalifət deyil, bunlar xalqa, dövlətçiliyə müxalifətdir. Ona görə də belələrini hətta ölkənin həssas dönəmlərində Vətən, dövlət, xalq kimi əhəmiyyətli faktorlar qətiyyən maraqlandırmır. Xəyanətkarları, satqınları birləşdirən məqam da məhz budur".

S.Novruzovun sözlərinə görə hazırda Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək vermək əvəzinə, Əli Kərimli və onun rəhbərlik etdiyi AXCP, onun sosial mediadakı söyüş qrupları tam əks-mövqe tutaraq, erməni dəyirmanına su tökməklə məşğuldurlar: "Əli Kərimli kimi ünsürlər əsl düşmən xislətini bir daha açıq şəkildə ortaya qoymuş olur. Əsl düşmən kimi uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə! Və xalq ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərən Əli Kərimlini və ətrafındakıları etdiyi əməllərinə görə cəzasını almaq tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Əli Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir".

*Rəfiqə Hüseynova*

## Qəbələ rayon sakinindən sənədləri olmayan ov tüfəngi götürülüb



Polis əməkdaşları qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi məqsədilə növbəti əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qəbələ Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Bum qəsəbə sakini R.Yaqubovdan müvafiq sənədləri olmayan "BUM" markalı ov tüfəngi götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Qohumunun evindən oğurluq edən şəxs saxlanılıb

***İmişli rayon Aranlı kənd sakini Ə. Xudiyev Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edərək ona məxsus evdən qızıl zinət əşyasının və pullarının oğurlanması barədə məlumat verib.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar polis əməkdaşları tərəfindən müvafiq tədbirlər görülüb. Oğurluq əməlini törətməkdə şübhəli bilinən İmişli rayon sakini Ə.Tağıyev keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Araşdırmalarla onun zərərçəkmişə məxsus evdən 2700 manat pul və 700 manat dəyərində qızıl üzük oğurladığı müəyyən edilib. Oğurlanmış pulların bir qismi və üzük maddi sübut kimi götürülüb. Dindirilmə zamanı o, törətdiyi cinayət əməlini etiraf edib. Faktla bağlı İmişli Rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

# Ermənilər qəddarlıqda faşistləri keçiblər

***Faşizm ideologiyasına görə, millətlər aşağı və ali kateqoriyalara bölünür. Özü də bu cəmiyyətdə ali millətlərin digərləri üzərində ağalıq etməsi nəzərdə tutulur. Faşist ideoloqları öz qarşılarına ağlagəlməz böyük vəzifələr qoymuşlar. Məsələn, Mussolininin Aralıq dənizi imperiyası, Hitlerin minillik "Böyük reyx" yaratmaq arzusu axırda onların fəlakətli məğlubiyyəti ilə nəticələnmişdir. İkinci Dünya müharibəsində faşizm məğlubiyyətə düçar olsa da, sonralar yenə də dirçəldilmişdir. Bu dirçəlmə neofaşizm (yeni faşizm) adını almışdır. Bu gün neofaşizm çox təhlükəlidir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bu da onunla bağlıdır ki, bir sıra ölkələrdə siyasi qüvvəyə çevrilməkdədir. Bədnam qonşumuz da Mussolini və Hitler kimi qarşısına "Böyük Ermənistan" yaratmağı baş məqsəd qoymuşlar. Xəyallarında "Böyük Ermənistan"ı reallaşdırmaq üçün dəridən-qabıqdan çıxan ermənilər bütün dünyaya sübut etmək istəyirlər ki, onların tarixi çox qədimdir. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan sərsəmliklə, guya ermənilərin səkkiz min illik dövlətçilik tarixi olduğunu qeyd edirdi. Bu qədər yalan, bu qədər həyasızlıq yalnız erməni millətinə xasdır.

Yazıçı Yemçuynikov yazır: "Qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir. Başqa millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər". Heç də təsadüfi deyil ki, xarici aləmə sıx-sıx səpələnmiş ermənilər türk dünyasına, xüsusilə də bizə qarşı mətbu orqanlarda məqalələr yazdırır, elə hey özlərini "əzabkeş" kimi təqdim edirlər. Burada Əmir Teymurun ermənilər haqqında dediyi bir fikir yada düşür: "Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə ya məni alqışlayacaq, ya da lənətləyəcəklər". Xeyr, Əmir Teymur deyil, lənətlənəsi erməni faşizmidir. Son illərdə İrəvanda faşist Qaregin Njdeyə abidə qoyulması Azərbaycanda olduğu kimi, Rusiyada da böyük narazılığa səbəb olub. Kimdir Qaragen Njde? Qaregin Njde İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq edib, hərbi əsir erməniləri öz tərəfinə çəkərək Almaniya tərəfində vuruşmağa çağırırdı. O, əsir ermənilər qarşısında dəfələrlə çıxış edir, onları SSRİ-yə qarşı mübarizəyə çağırıb: "Almaniya uğrunda ölən hər kəs Ermənistan uğrunda ölmüş olacaq". Erməni legionu Njdenin başçılığı ilə 20 minə yaxın sovet insanının, əsasən dinc vətəndaşların qanını töküb. Bu cəllad Azərbaycanda minlərlə soydaşımızın günahsız qanını axıdıb, Zəngəzurda soyqırımı aparıb. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin MDB dövlət başçılarının yüksək səviyyəli Aşqabad görüşündə ciddi əsaslandırılmış açıqlaması bütün dünyanı erməni faşizminin mahiyyəti barədə məsuliyyətlə düşünməyə çağırışkimi səsləndi. Rusiya Federasiyası Şurasının sosial siyasət komitəsinin sədr müavini Lüdmila Kozlova da "Nezavisimaya qazeta"da geniş məqalə yazaraq faşist Njdeyə heykəl qoyulmasını pisləmiş, bunun BMT Baş Assambleyasının nasizm və neofaşizmin qəhrəmanlaşdırılması ilə bağlı müvafiq qətnaməsinə zidd olduğunu göstərmişdir. Rusiya Xarici İşlər Nazirliyi də o zaman etirazını bildirib. Bütün bunlara baxmayaraq, ermənilər böyük qardaşının iradlarını qulaqardına vuraraq, bir az da irəli gedərək Rusiyanın Vladimir şəhərinə Njde adının verilməsini təklif etmişlər. Bu azmış kimi, Bolqarıstanda da əli on minlərlə insanın qanına batmış faşistə heykəl qoymaq istəyirdilər. Terrorizm və faşizmin təbliği erməni xalqının və Ermənistan dövlənin milli ideologiyasının mahiyyətini əks etdirir. Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut ingilisdilli "The İerusalem Post" qəzetində dərc edilmiş "Ermənistan terrorçuları tərifləməklə faşizmi dövlət siyasətinə çevirib" sərlövhəli məqaləsində yazırdı ki, doğrudanmı ermənilərin Njde kimi faşistlərdən başqa qəhrəmanı olmayıb? Ermənistanda faşizm ilə yanaşı, dövlət səviyyəsində terrorizmin qəhrəmanlaşdırılması siyasəti yürüdülür. Q.Çaxmaqlı yazır ki,ermənilər arasında "bəlkə Hitler də erməniymiş...", deyənlər tapılır: "Hitler də ari irqdən gəlir, biz də. Deməк bizim kökümüz eynidir". Bilinən gerçək odur ki, Hitler erməni deyil, amma onun ideya fəaliyyəti ilə ermənilərin etdikləri arasında qəribə bir bənzərlik mövcuddur. Ermənilərin bu gün təbliq etdikləri irqçilik siyasəti də almanların 20-30-cu illərdəki siyasi və hərbi doktrinasına bənzəyir. Şübhəsiz Hitler erməni deyildir, amma onu erməniləşdirmək istəyi ermənilərlə faşistlərin ortaq kimliyini ortaya qoyur. Bu isə danılmaz bir gerçəkdir ki, ermənilər faşistlərlə əməkdaşlıq etmişlər. Ermənilər faşistlərlə əməkdaşlıq etmiş adamları təqdir edir, onlara heykəllərqoyur, barələrində film çəkir, adlarına küçə verirlər. Demək, faşizm erməni düşüncə sisteminə görə müsbət bir ideoloji hərəkatdır.




"Berlində Erməni İnqilabi Federasiyası- Daşnaksütyunun rəhbərlərinin bəziləri Abeğyanın sədrliyi ilə "Erməni Milli Şurası" yaradarkən də onu müsbət bir ideoloji kimi qiymətləndirmişdilər. Şura üzvləri Artaşes Gyulxandanyan (sədr müavini), Harutyun Baqdasaryan (katib), Qaregin Njde, Drastamat Kanayan (Dro), Vahan Papazyan (Koms) və başqaları idilər. Şura Nazist Almaniyasının SSRİ-nin işğal olunmuş Şərq rayonları Nazirliyinin himayəsi altında fəaliyyət göstərirdi,onun əsas məqsədi Qafqazda alman hakimiyyətini təmin etmək idi. Bunu gerçəkləşdirmək üçün alman ordusu içərisində erməni legionunun təşkil edilməsi şərt olaraq ortaya qoyulmuşdu.Njde və Dro da bu legiona erməni əsirlərinin daxil edilməsini düşünmüşdülər. Bu iki keçmiş erməni komandan hərbi əsir düşərgələrini gəzir, erməni əsgər və zabitlərini xilas edib bu legiona daxil edirdilər. Ümumən 8-9 min əsgər topmamağa nail olmuşdular ki, 10 minlik bir erməni legionu qursunlar. Maraqlı idi ki, Reyxin üst təbəqəsində olan, Hitlerin sağ əli Herman Gerinq özünün "Yaşıl qovluq"unda faşist generallara bu işi reallaşdırmaq təlimatı vermişdi. Bu o demək idi ki, Hitlerin özünün bu işdən xəbəri vardı. Hitler demişdi: "Qafqazın yerliləri (gürcülər, ermənilər, tatarlar, və s.) və ruslar arasında olan düşmənçilikdən bizim maraqlarımızın xeyrinə istifadə olunmalıdır".

1994 cü ildə Rusiya Federasiyasında nəşr olunan "Moskovski Komsomoles" adlı qəzetin 29 noyabr tarixli nömrəsindəki "Neftyanoy sindrom" məqaləsində Qarabağ müharibəsində ermənilər tərəfdən döyüşmüş rus əsgərinin dedikləri yazılmışdı: "Ermənilərin əlində Azərbaycanlı əsirlər var. Lakin onlar artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ermənilər buz üstə çıxarırlar. Başlarından soyuq su tökür, başlarında şüşə butulka sındırıb qarın içində sürüyüb sonra yenidən onları kameraya salırlar. Əsil işgəncə də bundan sonra başlayır. Əsirlərin barmaqlarını qapı arasına qoyub qırırlar. Dırnaqlarını kəlbətinlə çəkirlər, rezin dəyənəklə döyürlər. Əsirlərin çoxu bu işgəncələrdən dəli olub ölürlər. Ananı körpə balasının qanında boğurdular.Biz növbəti kəndi işğal edəndə bir erməni Azərbaycanlı körpə uşağın ayaqlarından tutub onu neçə ikiyə böldüyünü gördüm. Sonra o uşağın bədənin bir parçasıyla uşağın anasının başına , sifətinə o qədər döydü ki , balasının al qanına qərq olmuş qadın dəli olub qışqıraraq gülməyə başladı".

Fransalı senator, Senatın xarici işlər üzrə komitəsinin sədr müavini Natali Qule deyib: "Ermənistanın Azərbaycana qarşı təcavüzünü qəti şəkildə pisləmək və bu ölkəyə qarşı sanksiyalar tətbiq etmək lazımdır".

O qeyd edib ki, dinc sakinlər arasında ölüm halları bir çox münaqişələr zamanı hər gün qeydə alınır: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də onlardan biridir. Bu, artıq dözülməzdir. Sülh prosesini başlamaq və atəşkəs rejiminin saxlanması üçün beynəlxalq qüvvələri cəlb etmək lazımdır. Dünya ictimaiyyəti bu məsələdə ciddi iradə nümayiş etdirməlidir. Bizə Cənubi Qafqazda növbəti müharibə lazım deyil".

Bir çox beynəlxalq təşkilatın Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını tanıdığını xatırladan N.Qule deyib ki, Rusiyaya qarşı sanksiyalar tətbiq etmiş ABŞ prezidenti Donald Tramp işğalın qurbanı olan Azərbaycanın tərəfində olmalıdır.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

1 may

Son səhifə

## Tez-tez xəstələnməmək üçün bunlara əməl edin!



## 9 gün sonra qovuldu, 3 milyon avro qazandı



"Bolonya"nın baş məşqçisi Sinişa Mixayloviç "Sportinq"dən qovulduğu üçün 3 milyon avro təzminat alacaq. Bu barədə "A Bola" nəşri məlumat yayıb. Bildirilib ki, ötən ilin iyulunun 18-i Portuqaliya klubuna baş məşqçi təyin olunan mütəxəssislə 9 gün sonra 3 illik müqaviləyə xitam verilib. İdman Arbitraj Məhkəməsi (CAS) Lissabon təmsilçinin 50 yaşlı mütəxəssisə 3 milyon avro ödəməli olduğuna dair qərar çıxarıb. Qeyd edək ki, S.Mixayloviç CAS-a müraicət edərək 11.2 milyon avro təzminat istəmişdi.

## Siyəzəndə narkotik satan 3 şəxs tutulub

***Siyəzən rayon polis şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsində və alqı-satqısında şübhəli bilinən üç rayon sakini saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Quba rayonunda regional qrupundan xezerxeber.az-a verilən məlumata görə, RPŞ-nin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə narkotik vasitələrin alqı-satqısında şübhəli bilinən rayon sakini, əvvəllər məhkum olunmuş 40 yaşlı Namiq Məhərrəmov yaşadığı evin yaxınlığında saxlanılıb.

Hal şahidlərinin iştirakı ilə ona məxsus fərdi yaşayış evinə keçirilən baxış zamanı oradan satış üçün hazırlanmış beş bükümdə narkotik maddə olan metamfetamin, bir bükümdə heroin, bir ədəd "Methodone-40" həbi və bir ədəd elektron tərəzi aşkar olunub.



Şöbə əməkdaşları tərəfindən eyni gündə keçirilmiş digər əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuş daha iki rayon sakini, 54 yaşlı Famil Zahidov və 41 yaşlı Feyruz Zeynallı da saxlanılaraq polis şöbəsinə gətiriliblər. Onların üzərlərinə baxış keçirilən zamanı hər iki şəxsdən narkotik maddə olan heroin aşkarlanaraq götürülüb. Qeyd olunan faktlarla bağlı Siyəzən RPŞ-də cinayət işi açılıb, araşdırmalar aparılır.

## Xərçəng diaqnozunda İNQİLAB



***Xərçəng xəstəliyini daha erkən dövrlərdə aşkarlamaq mümkün olacaq. Bu, qan analizi verməklə kimi sadə üsulla gerçəkləşdiriləcək. "Science" dərgisində yer alan araşdırmaya görə, orqanizmdə simptomlarına rast gəlinməyən xərçəng xəstəliyinin bir çox növləri bu üsulla üzə çıxarılacaq.***

Araşdırmanın sınaqları daha əvvəl xəstəliyin heç bir simptomunu bürüzə verməyən minlərlə insan üzərində aparılıb. Testin təkmilləşdirilməsinə yardımçı olan Con Hopkins Universitetinin elm adamı Nikolas Papadopoulos bu üsulla standart seçim metodlarından ikiqat daha çox xəstəlik aşkarladıqlarını bildirib. Onun sözlərinə görə, test 65-75 yaş qrupuna daxil qadın və kişilər üzərində tətbiq olunub. Daha dəqiq nəticələr əldə etmək üçün testə müxtəlif yaş qruplarından ibarət şəxslər cəlb olunmalıdır.

***Tez-tez xəstələnməmək üçün bədənin immunitetini artırmaq lazımdır. Bunun üçün ən yaxşı yol immuniteti artıran bitki, tərəvəz və meyvələrdən istifadə etmək lazımdır. Odur ki, sizə istinadən imuniteti artıran qidaları təqdim edirik:***

**1.** Çobanyastığı - çiçəyi və yarpaqları A və C vitamini ilə zəngindir. Onu sıyıq halına gətirib yaralara sürtükdə sağalmanı tezləşdirir. İmmuniteti artırmaq istəyənlər hər gün təzə çobanyastığı qoxulamalıdırlar. Evə bir dəstə çobanyastığı saxlamaq faydalıdır.

**2.** Razyana - toxumlarını zülal və yağ baxımından zəngindir. Bədəni rahatlaşdırır və sakitləşdirir. Qan azlığını aradan qaldırmaq üçün yaxşı vasitədir. Razyananı iki gündən bir dəmləyib içmək olar. Ancaq yaşıl çayla birgə dəmləndikdə daha faydalı olur.

**4.** Qara turp - yuxusuzluğa çarədir. Bədəni gücləndirir, xərçəng şişlərinin inkişafının qarşısını alır. Qan təmizliyici xüsusiyyətindən dolayı qara turp allergiyadan əziyyət çəkən xəstələrə də kömək olur. Bu bitkini salatlarda istifadə etmək immunitetinizi kifayət qədər gücləndirəcək.

**6.** Portağal - C vitamini anbarı olan portağal bədəni və immunitet sistemini gücləndirir. Portağal ürək və damar xəstəlikləri və xərçəngə qarşı qoruyucudur. Qrip və öskürək kimi xəstəliklərə yaxşı təsir edir. Bədəndəki zərərli maddələri təmizləyir. Qış mövsümündə gündə bir ədəd portağal yemək bədən üçün faydalıdır.

**7.** Bal - antibakteriyal təsirə malikdir. Həzmi asanlaşdırır və mədədəki artıqları ixrac edir. Qan artırma xüsusiyyəti ilə, yanaşı gümrahlıq da verir. Ürək xəstələrinə faydalıdır. Yaz-qış fərqi olmadan gündə bir qaşıq bal qəbul edin.

## Azərbaycanda karantin dövründə 1124 nikah bağlanıb

Ölkədə tətbiq edilən karantin dövründə 1224 nikah qeydə alınıb. SİA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyinin "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda bu gün keçirdiyi onlayn mətbuat konfransında nazirliyin Qeydiyyat şöbəsinin rəisi Rəşidə Manafova bildirib. R.Manafova qeyd edib ki, karantin dövrü müddətində nikahların pozulması faktı qeydə alınmayıb. Bu proses müvəqqəti olaraq dayandırılıb.



## Koronavirus Rusiyada rekord vurdu: 7099 yoluxma!

Rusiyada ötən gün ərzində koronavirus infeksiyasına rekord sayda - 7099 yoluxma halı aşkar edilib. Xezerxeber.az xəbər verir ki, Rusiyada daha 7099 nəfər COVİD-19 xəstəsi aşkar edilib. Hazırda ölkədə 106 min 498 koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Onların 11 min 619 nəfəri sağalıb, 1073 xəstə vəfat edib. Ötən gün Rusiyada 1333 xəstə sağalıb, 101 nəfər həyatını itirib. Moskvada COVİD-19-a yoluxan 3093 yeni xəstə aşkar edilib.




*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**